17 avqust 2022 №58-59 (1932) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Azərbaycanın səsi – "Baharlı yurd"un nəfəsi

## Sənəti ilə əbədi həyat qazanan Müslüm Maqomayevin 80 yaşı tamam olur

Ey əziz anam, Azərbaycan!
Sənə bağlıyam, Azərbaycan!
Ömrümün mənasısan,
Qardaşlıq dünyasısan,
Anamın anasısan, Azərbaycan…

Baharlı yurdum, Azərbaycan!
Çinarlı yurdum, Azərbaycan!
Sənsən eşqim, zəfərim,
Çağlayan Kür, Xəzərim,
Günəşli al səhərim, Azərbaycan!

Xalq şairi Nəbi Xəzrinin misralarını dillər əzbərinə çevirən və bu sadə sözlərə əbədi sənət ömrü bəxş edən onun ecazkar musiqisi və bənzərsiz səsi oldu...

Avqustun 17-də Azərbaycanın dünya şöhrətli opera və estrada müğənnisi, bəstəkar Müslüm Maqomayevin anadan olmasının 80 illiyi tamam olur.

Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə parlaq səhifələr yazmış Müslüm Maqomayev zəngin və rəngarəng repertuara malik ifaçı idi. Bu zənginlikdə onun özünün musiqi ömrü bəxş etdiyi bəstələr xüsusi yer tutur. Qüdrəti sənətkar opera ifaçılığının ecazkar nümunələrinə vokalçı kimi öz möhürünü vurmaqla bərabər, milyonlarla musiqisevərin rəğbətlə qarşıladığı mahnılar bəstələmişdi. Bizim üçün isə onun şah əsəri himnimiz qədər möhtəşəm səslənən "Azərbaycan" ("Baharlı yurdum") mahnısıdır.



Bu dünyadan on dörd il əvvəl cismən köçən sənətkar səsi ilə əbədi yaşayacaq. Təsadüfi deyil ki, onun doğum və anım (25 oktyabr) günləri hər il təkcə doğma vətəni Azərbaycanda deyil, sevilib rəğbət gördüyü hər yerdə, o cümlədən ömrünün yarıdan çoxunu yaşadığı və milyonlarla pərəstişkarının olduğu Rusiyada geniş şəkildə qeyd edilir.

Bu günlərdə (15-19 avqust) Rusiyanın Birinci kanalında əfsanəvi müğənninin 80 illik yubileyi münasibətilə "Maqomayev" serialı nümayiş olunur. 2020-ci ildə ilk dəfə ekrana çıxan filmdə həmyerlimizi serb aktyor Miloş Bikoviç canlandırıb. Serial Moskvada və Bakıda çəkilib.

Bundan əlavə, Rusiya telekanalında avqustun 17-də sənətkarın həyat və yaradıcılığından bəhs edən "Müslüm Maqomayev. Yer üzünün ən yaxşı səsi" sənədli filmi nümayiş etdiriləcək.

Müslüm Maqomayevin 80 illiyi ilə bağlı Bakının baş səhnəsində – Heydər Əliyev Sarayında böyük konsert proqramı isə oktyabrda, sənətkarın anım günündə keçiriləcək.

**mövzunun davamı səh. 2-də**

# Çoxşaxəli əməkdaşlıq üçün geniş imkanlar var



Azərbaycan Prezidenti İlham Əliyev avqustun 16-da Türkmənistan, İsveç, Almaniya və Argentinanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.

Türkmənistan Respublikasının Azərbaycandakı yeni səfiri Qurbanməmmet Elyasovun etimadnaməsini qəbul edən Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu bildirib. Qeyd edib ki, son illərdə həm qarşılıqlı səfərlər, həm əldə edilmiş razılaşmalar Azərbaycan-Türkmənistan əlaqələrini daha yüksək pilləyə qaldırıb.

Bu yaxınlarda Türkmənistana səfəri zamanı ölkənin yeni Prezidenti Sərdar Berdiməhəmmədov və Xalq Məsləhəti Şurasının Sədri Qurbanqulu Berdiməhəmmədovla görüşdüyünü diqqətə çatdıran İlham Əliyev deyib: "Biz bütün sahələrdə iki qardaş ölkə kimi uğurla hərəkət edirik, bir-birimizi dəstəkləyirik, istər beynəlxalq müstəvidə, istər ikitərəfli, istər çoxtərəfli formatda. Son vaxtlar iqtisadiyyat, ticarət, energetika, nəqliyyat, humanitar və digər sahələrdə biz yeni nəticələr görürük. Bu, bizi çox məmnun edir".

Azərbaycan Prezidenti vurğulayıb ki, ölkələrimiz arasında yüksək səviyyəli çoxşaxəli əməkdaşlıq tarixi köklərə əsaslanır.

**davamı səh. 2-də**

# "Fəxr edirəm ki, musiqimiz ilk dəfə Monterey festivalında səslənəcək"

ABŞ-ın Boston şəhərində yaşayan azərbaycanlı cazmen, pianoçu, Əməkdar artist Emil Əfrasiyab ilk dəfə ölkəmizi Kaliforniya ştatında təşkil olunacaq 65-ci Monterey Caz Festivalında təmsil edəcək. Bu barədə Əməkdar artist Emil Əfrasiyab qəzetimizə məlumat verib.

Musiqiçi bildirib ki, 23-25 sentyabr tarixində təşkil olunacaq bu nüfuzlu festivalda iştirak o qədər də asan deyil: "İfam festivalın prezidenti Tim Jacksona təqdim edildikdən sonra məni dəvət ediblər. Şərtlərə görə, caz-trio şəklində çıxış edəcəyəm. Təəssüflər olsun ki, milli alətlərdən festivala apara bilmirəm. Onu da qeyd edim ki, ümumiyyətlə, yarandığı 64 ildə nəinki Azərbaycan, eləcə də Qafqaz regionundan bu festivalda iştirak edən olmayıb. Monterey Caz Festivalı bu sahədə dünyada bir nömrəli festival sayılır. ABŞ-da cazsevərlər yay tətilində bu festivala görə Montereyə gəlirlər. Festivalda iştirakım mənim üçün böyük şərəfdir. Çünki festivalda üçrəngli bayrağımızla səhnəyə çıxacağam və Azərbaycan caz sənətinin üstünlüyünü nümayiş etdirəcəyəm. Trionun tərkibinə gəldikdə isə şərtlərə əsasən, yalnız sertifikasiyası olan musiqiçilər iştirak edə bilər. Bu səbəbdən də mənim çıxış edəcəyim trio amerikalı musiqiçilərdən ibarətdir: zərb, bas gitara ifaçıları – Jogef Kabay və Bar Filipovich. Onlar artıq Azərbaycan musiqisini dinləyərək öyrəniblər. Onları Azərbaycan musiqisi barədə məlumatla təmin etməyə çalışıram. Festivalda zəngin musiqimizlə yanaşı, özümün "İki dünya", "Əzizə", "Bulvarda gəzinti" və "Ataya məktub" əsərlərimi də səsləndirəcəyəm".




**davamı səh. 2-də**

# İşğaldan azad edilmiş ərazilərin Ümumi planı təsdiq edilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 avqust 2022-ci il tarixli Qərarı ilə "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı" təsdiq edilib.

Baş nazir Əli Əsədovun imzaladığı qərarda "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"nın Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifi nəzərə alınaraq təsdiq edildiyi qeyd olunur.

Avqustun 16-da Baş nazir Əli Əsədov tərəfindən həmçinin "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiqlənib.

# Azərbaycan bədii fikrinin görkəmli siması

Klassik poeziyamızın parlaq nümayəndəsi, şairə, ictimai xadim Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyi ölkəmizdə silsilə tədbir və layihələrlə qeyd olunur.

Avqustun 15-də Milli Kitabxanada Xurşidbanu Natəvanın yubileyinə həsr olunmuş sərginin açılışı və "Azərbaycan bədii fikrinin görkəmli siması – Xan qızı Xurşidbanu Natəvan" adlı elektron məlumat bazasının təqdimatı keçirilib.

**səh. 3**

# Teatrdakı xoşbəxt adamla yubileysayağı söhbət



Xalq artisti, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktor-bədii rəhbəri, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri Azər Paşa Nemətovla onun 75 illik yubileyi ərəfəsində, teatr cameəsinin sakit mövsümünün tən ortasında görüşdük. Müsahibə üçün vədələşəndə zarafatla dedi ki, gözətçiyəm, şənbə günü (!) elə teatrda olacağam...

"...Teatrda başıma elə oyunlar gəldi ki!... Fikirləşdim ki, bəlkə mən teatrı bilmirəm, tamaşa qurmağı bacarmıram? Gedim, özümü başqa bir mühitdə sınayım. Getdim. O zaman Leninqradda Akademik Gənc Tamaşaçılar Teatrında çalışmağa başladım. Məlum oldu ki, mən düz yoldaymışam. Tamaşa verdilər, – qurdum. Bəyəndilər, mənimlə hesablaşmağa başladılar".

**səh. 5**

# "İstintaq" filmi Sankt-Peterburqda festivalda göstəriləcək

21-24 avqust tarixində Rusiyanın Sankt-Peterburq şəhərində III Lendok Beynəlxalq Film Festivalı (LEFF) keçiriləcək. Sankt-Peterburq Sənədli Filmlər Studiyasının (keçmiş Leninqrad Kinoxronika Studiyası – Lendok) 90 illiyinə həsr edilmiş festivalda postsovet ölkələrinin filmləri nümayiş olunacaq.




Festivalın proqramında Azərbaycan kinematoqrafiyasının görkəmli nümayəndəsi, Xalq artisti, Dövlət mükafatları laureatı, rejissor Rasim Ocaqovun "İstintaq" filmi də yer alıb. Film avqustun 21-də tamaşaçılara nümayiş etdiriləcək.

"Azərbaycanfilm" Kinostudiyasında 1979-cu ildə lentə alınan "İstintaq" filmi (ssenari müəllifi Rüstəm İbrahimbəyov) o dövrdə ictimai məsələləri cəsarətlə qaldıran, ciddi sosial, mənəvi-etik mövzulara toxunan ekran əsəri kimi ittifaq miqyasında geniş rezonans doğurmuşdu. 1981-ci ildə filmin yaradıcı heyətinə (ssenari müəllifi Rüstəm İbrahimbəyov, quruluşçu rejissor Rasim Ocaqov, quruluşçu operator Rafiq Qəmbərov, quruluşçu rəssam Fikrət Bağırov, aktyorlar Aleksandr Kalyagin, Həsən Məmmədov və Şəfiqə Məmmədova) SSRİ Dövlət mükafatı verilib.

# Macar çölündə türk tarixinə səyahət



12-14 avqust tarixində Macarıstanın Buğac bölgəsində, Kişkunşaq milli parkının ərazisində VII Hun-Türk Qurultayı keçirilib. Avropada ən böyük ənənəvi tədbirlərdən sayılan, Türk dünyasının birliyini təcəssüm etdirən qurultayda 20-dən çox türksoylu xalq təmsil olunub. Qurultay tədbirləri Macarıstanın paytaxtı Budapeştdə, həmçinin Keçkement, Şiofok şəhərlərində də gerçəkləşib.

Ölkəmizin sənətçilər qrupu – xanəndələr Nuriyyə Hüseynova, Qoçaq Əsgərov, tarzən Arslan Növrəsli, nağaraçı Kamran Kərimov, kamança ifaçısı Elnur Mikayılov və "Odlar Yurdu" rəqs qrupu tədbirdə iştirak edib.

**səh. 8**

# Xor sənətinin inkişafına töhfələr verən sənətkar

Musiqi mədəniyyətimizin inkişafında əməyi olan sənətkarlardan biri də Əməkdar incəsənət xadimi, professor Eduard Novruzovdur. Onun adı Azərbaycan Dövlət Xor Kapellasının yaradıcısı kimi musiqi tariximizə düşüb. Musiqi xadimini anadan olmasının 95 illiyi münasibətilə yada saldıq.

E.Novruzov Azərbaycan Dövlət Konservatoriyasını bitirdikdən sonra Bakı Musiqi Texnikumunun Xor dirijorluğu şöbəsində pedaqoji fəaliyyət göstərib. İxtisas fənni dirijorluqdan başqa o, bloka daxil olan bir sıra fənləri – xorşünaslıq, xor partituralarının oxunuşu, xorla işin metodikası və s. tədris edib.

**səh. 6**

## Minaaxtaranlar haqqında film çəkilib



**səh. 3**

## Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Qonağımız var" layihəsində Xalq şairi Sabir Rüstəmxanlı ilə görüş

**səh. 3**



## Polşalı turistlər Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda

**səh. 4**



# Çoxşaxəli əməkdaşlıq üçün geniş imkanlar var

## Prezident Türkmənistan, İsveç, Almaniya və Argentinanın yeni səfirlərinin etimadnamələrini qəbul edib

*əvvəli səh. 1-də*

Prezident İsveç Krallığının ölkəmizdəki yeni səfiri Tobias Lorentzsonla söhbət zamanı bu ölkənin sirkətlərinin Azərbaycanda fəaliyyətini qeyd edərək onların sayının və ölkələrimiz arasında ticarət dövriyyəsinin artacağına ümidvar olduğunu bildirib. Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan İlham Əliyev bu əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlığın son zamanlar yeni mərhələyə qalxaraq təkcə energetika sahəsini deyil, eləcə də nəqliyyat dəhlizləri, ticarət, investisiya və digər sahələri də əhatə etdiyini vurğulayıb.

Səfir Tobias Lorentzson fəaliyyəti dövründə ikitərəfli münasibətlərin, o cümlədən ticarət və sərmayə qoyuluşunu, ölkələrimiz arasında daha sıx biznes təmaslarını təşviqi üçün çalışacağını deyib. "Eyni zamanda, ümid edirəm ki, insanlar arasında ünsiyyətin və ölkələrimiz arasında təmasların artırılmasına nail ola biləcəyəm. Bu, həm də Avropa İttifaqı-Azərbaycan əlaqələrinin də vacib aspektlərindəndir", – deyə isveçli diplomat əlavə edib.

Bizim çox geniş gündəliyimiz var və əməkdaşlığın yaxşı tarixi var. Bildiyiniz kimi, alman şirkətləri Azərbaycanda çox geniş təmsil olunub və əminəm ki, onların fəaliyyəti daha da geniş olacaq. Bizim yüksək səviyyəli səfərlərimiz və çox yaxşı siyası əlaqələrimiz var. Əlbəttə, biz yeni fürsətlərin nədən ibarət olduğunu görməliyik. Çünki Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələr region üçün və həmçinin ölkələrimiz üçün çox mühümdür.

Bu sözləri isə Prezident İlham Əliyev Almaniyanın Azərbaycandakı yeni səfiri Ralf Horlemannla söhbət zamanı deyib.

Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan dövlət başçısı bu əlaqələrin inkişafında Almaniyanın xüsusi rolunu qeyd edib: "Biz Avropa İttifaqı-Azərbaycan ikitərəfli gündəliyinə verdiyiniz bütün dəstəyə görə minnətdarıq. Bu gündəlik getdikcə genişlənir və bir çox sahələri əhatə edir".

Prezident İlham Əliyev Avropa İttifaqı ilə əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən energetika, nəqliyyat və nəqliyyat dəhlizləri, ticarət, investisiya sahələrində geniş perspektivlərə malik olduğunu vurğulayıb. Azərbaycan ilə Avropa Komissiyası arasında enerji dialoquna start verildiyini qeyd edən dövlət başçısı deyib: "Azərbaycan enerji bazarında yalnız ənənəvi olan neft və qaz ilə deyil, həmçinin gələcəkdə elektrik enerjisi, neft, hidrogen və neft-kimya məhsullarının idxalı ilə çox önəmli oyunçuya çevrilməkdədir. Biz mühüm nəqliyyat infrastrukturunu vaxtında tamamladıq".

İki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirən səfir Ralf Horlemann qeyd edib ki, bu, bizim daha da inkişaf etdirə biləcəyimiz müsbət gündəlikdir: "Siz doğru qeyd etdiniz ki, Almaniya və Azərbaycan geniş və çoxtərəfli münasibətə, konstruktiv siyasi dialoqa, güclü iqtisadi münasibətlərə malikdir. Azərbaycan Almaniyanın regionda ən mühüm iqtisadi tərəfdaşıdır. Biz enerji və bərpaolunan enerji sahələrində böyük potensial görürük".

Söhbət zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə böyük miqyaslı mina problemi ilə üzləşməsi, Birinci Qarabağ müharibəsindən etibarən 4 min azərbaycanlının itkin düşmüş şəxs hesab edilməsi, həmçinin Azərbaycanın təşəbbüskarı olduğu və Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasına xidmət edən sülh gündəliyi məsələləri də müzakirə olunub. İşğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən yenidənqurma və bərpa işləri barədə də fikir mübadiləsi aparılıb.

Etimadnaməsini təqdim edən Argentina səfiri xanım Marianxeles Belluşi ölkəsinin başçısı Alberto Fernandesin salamlarını və ən xoş arzularını da Azərbaycan Prezidentinə çatdırıb. Dövləti başçısı onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş edib.

Ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu bildirən İlham Əliyev ticari və iqtisadi sahələrdə də əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd edib və bunun üçün yaxşı potensialın mövcud olduğunu deyib.

Səfir Marianxeles Belluşi də iqtisadi-ticari əlaqələrin genişlənməsi və bu baxımdan əməkdaşlığın səhiyyə, texnologiyalar, kənd təsərrüfatı və digər yeni sahələrin müəyyənləşdirilməsinin vacibliyini qeyd edib.

# Azərbaycanla Qırğızıstan arasında hökumətlərarası komissiyanın iclası keçirilib

Avqustun 16-da Bakıda Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclası keçirilib.

Komissiyanın Azərbaycan tərəfdən həmsədri, Baş nazirin müavini Əli Əhmədovun və komissiyanın Qırğızıstan tərəfdən həmsədri, Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayevin sədrlik etdikləri iclasda iki ölkənin müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri, o cümlədən Azərbaycan mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev iştirak edib.

İclasda çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycan-Qırğızıstan dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprel ayında Azərbaycana rəsmi səfəri zamanı dövlət başçıları tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin bu münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırdığını bildirib.

Azərbaycan-Qırğızıstan xarici ticarət dövriyyəsinin hazırkı həcminin, mövcud iqtisadi əlaqələrin ölkələrin real imkanlarına cavab vermədiyi diqqətə çatdırılıb. Bu baxımdan işgüzar əlaqələrin qurulması və inkişafı, ikitərəfli ticari-iqtisadi əməkdaşlığın konkret istiqamətlərinin müəyyən edilməsi məqsədilə birgə işgüzar tədbirlərin təşkilinin, sahibkarlıq fəaliyyəti üçün qarşılıqlı əlverişli şərait yaradılmasının, müştərək iqtisadi və investisiya layihələrinin təşviqinin vacibliyi qeyd edilib.

Ə.Əhmədov Azərbaycan-Qırğızıstan əlaqələrinin digər istiqamətlərdə, o cümlədən mədəni-humanitar sahədə inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə danışan Baş nazirin müavini 30 il işğal altında qalan və 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan əzəli Azərbaycan torpaqlarında hərbi cinayətlərin törədildiyini, Azərbaycan xalqının mədəni-mənəvi irsinin məhv edildiyini diqqətə çatdırıb.

Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayev də iki ölkə arasında siyasi dialoqun inkişaf etdiyini, ticari-iqtisadi sahədə əməli əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu vurğulayıb.

B.Torobayev Azərbaycanın biznes dairələrini Qırğızıstanda investisiya imkanlarını fəal öyrənməyə çağırıb, bunun iki ölkə arasında işgüzar əməkdaşlığın fəallaşmasına kömək edəcəyinə əminliyini ifadə edib.



İclasda iki ölkənin nümayəndə heyəti üzvlərinin məruzələri dinlənilib, gündəlikdə duran məsələlər ətrafında müzakirələr aparılıb.

Sonda Əli Əhmədov və Bakıt Torobayev Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclasının Protokolunu imzalayıblar.

# "Bu təxribatı törədənlərin məsuliyyətə cəlb ediləcəyini gözləyirik"

Londonda Azərbaycan səfirliyinə qarşı baş verən insident radikal dini qrup üzvləri tərəfindən diplomatik nümayəndəliyə qarşı edilən hücumdur, təxribatdır və bu hadisə diplomatik nümayəndəliyimizin təhlükəsizliyi məsələsini ciddi şəkildə gündəmə gətirir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bu sözləri Böyük Britaniyanın Avropa üzrə naziri Qraham Stüartın Azərbaycan səfiri ilə görüşü zamanı Londonda Azərbaycan səfirliyinə olan hücumla bağlı dərin təəssüf hissi keçirdiklərini söyləməsinə münasibət bildirərkən deyib.

"Bir daha xatırladırıq ki, diplomatik nümayəndəliklərin, o cümlədən diplomatların təhlükəsizliyi beynəlxalq öhdəliklərə uyğun olaraq ev sahibi ölkə tərəfindən təmin edilməlidir. Bununla əlaqədar olaraq, Britaniya nazirinin diplomatik heyətin təhlükəsizliyini prioritet məsələ kimi qeyd etməsi əhəmiyyət kəsb edir. O ki, qaldı "fikir azadlığının ifadə edilməsinə", Londondakı səfirliyimizə hücumla heç bir əlaqəsi olmayan bu prinsipin azad cəmiyyətdə tətbiq edilməsi yollarına və ya qaydalarına yəqin ki, qədim Qərb demokratiyası olan Britaniyanın müvafiq qurumları yaxşı bələddirlər. Əks təqdirdə, hər hansı radikal və qeyri-qanuni addımın "azadlıq" pərdəsi altında şərh edilməsi ölkə təhlükəsizliyinə ciddi problemlər yarada bilər. Londondakı səfirliyimizə qarşı təxribatın ətraflı şəkildə araşdırılacağını və bu təxribatı törədənlərin məsuliyyətə cəlb ediləcəyini gözləyirik", - deyə Leyla Abdullayeva qeyd edib.

Xatırladaq ki, avqustun 4-də dini radikal qrup tərəfindən Azərbaycanın Londondakı Səfirliyinə qarşı hücum törədilmişdi. Bununla bağlı Böyük Britaniyanın Bakıdakı müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə dəvət olunmuş və ona qəti etiraz bildirilmiş, baş vermiş vandallıq aktı ilə bağlı Birləşmiş Krallığın müvafiq qurumları tərəfindən hərtərəfli istintaq araşdırmasının aparılması və cavabdeh şəxslərin məsuliyyətə cəlb edilməsi tələb edilmişdi.

Hadisə ilə bağlı məlumat yayan London polisi səfirliyinə hücuma görə 8 nəfərin saxlanıldığını, araşdırma aparıldığını bildirmişdi.

# "Fəxr edirəm ki, musiqimiz ilk dəfə Monterey festivalında səslənəcək"

*əvvəli səh. 1-də*

Emil Əfrasiyab festivalda iştirak edən ilk azərbaycanlı olmağın gətirdiyi həyəcan və məsuliyyəti bir arada yaşadığını deyir: "Çox sevinirəm ki, festivalda ilk dəfə bizim musiqimiz səslənəcək. Çalışacağam yüksək səviyyədə musiqimizi təbliğ edim. Təşkilat komitəsi ilk dəfə Azərbaycan musiqisinə diqqət edib və festivalın saytında iştirakçılar bölməsində mənim Azərbaycanda doğulub böyüməyim, təhsil almağım haqqında məlumat verilib. Konsertlərdə paylanılan bukletlərdə ölkəmizin adının qeyd edilməsi böyük fəxrdir".

Qeyd edək ki, Monterey Caz Festivalı dünyanın ən uzunömürlü caz festivalıdır və hər il Kaliforniyanın Monterey şəhərindəki 20 hektarlıq palıd ağacları ilə örtülmüş "Monterey County" sərgi meydanında keçirilir. 1958-ci ildən bəri keçirilən festival əfsanəvi caz musiqiçiləri, bəstəkarlar və gənc caz ulduzlarını bir araya gətirir.

**Lalə Azəri**

# Estrada səhnəsinin sönməz ulduzu

Avqustun 16-da Musiqi Mədəniyyəti Dövlət Muzeyində dünya şöhrətli müğənni, bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Maqomayevin (1942-2008) anadan olmasının 80 illik yubileyinə həsr edilən "Estrada səhnəsinin sönməz ulduzu" adlı tədbir keçirildi.

Tədbiri giriş sözü ilə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq böyük sənətkarın özünəməxsusluğu ilə seçilən və ümumən sovet estradasını yeni mərhələyə yüksəldən yaradıcılığından danışdı. Bildirdi ki, Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə parlaq səhifələr yazan Müslüm Maqomayev rəngarəng repertuara malik qüdrətli ifaçı idi. Onun repertuarında dahi Üzeyir Hacıbəylinin Nizami Gəncəvinin qəzəllərinə bəstələdiyi "Sənsiz" və "Sevgili canan" romansları xüsusi yer tutur. Bu romanslar Müslüm Maqomayevə qədər korifey sənətkarların ifasında səslənib. Amma o, bu romanslara yeni çalarlar, bənzərsiz intonasiyalar gətirərək onları fərqləndirməyi bacardı...

Muzeyin şöbə müdiri Xanım Abdinova dünya şöhrətli müğənninin keçdiyi sənət yolundan danışdı. Diqqətə çatdırdı ki, sənətkar XX əsrin 60-cı illərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub. İtaliyanın Milan şəhərində



məşhur "La Skala" teatrında təcrübə keçib. Misilsiz şöhrət qazanan müğənninin pərəstişkarları konsert salonlarına sığmır, o hətta stadionlarda minlərlə dinləyici qarşısında çıxış edir. Mahnıları yazılmış vallar çox böyük tirajla buraxılır. Məhz buna görə o, sovet estradasının ötən əsrin ikinci yarısında ən parlaq ulduzuna çevrilir, klassik opera ariyalarını estradaya gətirir.

Məruzəçi qeyd etdi ki, zəngin musiqi ənənələrimizin inkişaf etdirilməsində Müslüm Maqomayevin yaratdığı və bir müddət rəhbərlik etdiyi Azərbaycan Dövlət Estrada-Simfonik Orkestri mühüm rol oynayıb. Müslüm Maqomayev qəlblərdə elə bir sənət abidəsi ucaldıb ki, o, daim ziyarət ediləcək və seviləcək.

Çıxışlar zamanı muzeyin arxiv materialları əsasında hazırlanan slayd-şou nümayiş olundu.

Sonra sənətkarın xatirəsinə həsr edilən konsert proqramı təqdim olundu. Vokalçı-bəstəkar Qasım Xəlilov, beynəlxalq musiqi festivallarının laureatı Ərşad Heydərov, beynəlxalq müsabiqə laureatı Əli Vahidov və Lalə Xəlillinin ifalarında M.Maqomayevin repertuarından ariyalar, romanslar və mahnılar səsləndirildi.

Sonda Heydər Əliyev Mərkəzinin Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə hədiyyə etdiyi fotomateriallar əsasında hazırlanmış "Müslüm Maqomayev – 80" fotosərgisinə baxış keçirildi.

**Savalan Fərəcov**

# Kitabxanada Maqomayevin 80 illiyi münasibətilə sərgi-söhbət

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında dünya şöhrətli opera və estrada müğənnisi, bəstəkar, SSRİ və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin 80 illiyi münasibətilə sərgi-söhbət keçirilib.

Tədbirdə dahi sənətkarın həyat və yaradıcılığı haqqında məlumat verilib. Vurğulanıb ki, Müslüm Maqomayevin yaradıcılığı Azərbaycan mədəniyyəti tarixində xüsusi yer tutur. O, dünyanın möhtəşəm konsert salonlarında rəngarəng çıxışları ilə Azərbaycan mədəniyyətinə geniş şöhrət qazandırıb. Keçmiş SSRİ-nin ən populyar estrada müğənnilərindən biri olan Müslüm Maqomayev ümumxalq məhəbbəti qazanıb.

Sənətkarın ifasında səslənən məşhur mahnılardan ibarət videoçarx nümayiş olunub və iştirakçılar ifaçıya həsr edilmiş sərgiyə baxıblar.

# Sarıbaba yüksəkliyində mina tarlası

## Ermənilərin basdırdığı 991 mina zərərsizləşdirilib

Laçın rayonunun şərq hissəsində, Sarıbaba yüksəkliyinin şimal-qərb istiqamətində qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Məlumatda bildirilir ki, Azərbaycan Ordusu Mühəndis Qoşunlarının bölmələri tərəfindən ərazinin kəşfi aparılıb. Aşkar edilmiş minalar xüsusi hazırlıq keçmiş istehkam qrupu tərəfindən zərərsizləşdirilib.

Avqustun 15-də minalanmış sahədən ümumilikdə 991 ədəd PMN-E növlü piyada əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla utilizasiya edilib.

Aşkar edilən minaların hamısı Vətən müharibəsindən sonra – 2021-ci ildə Ermənistanda istehsal olunub.

Xatırladaq ki, avqustun 3-də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üzvlərinin Azərbaycan Ordusu bölmələrinə qarşı terror-təxribat əməli həyata keçirilib. Buna cavab olaraq Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürülüb. Bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülüb.



# Azərbaycan bədii fikrinin görkəmli siması

## Natəvanın 190 illiyi münasibətilə elektron məlumat bazası, kitab sərgisi və yeni nəşrlərin təqdimatı




Klassik poeziyamızın parlaq nümayəndəsi, şairə, ictimai xadim Xurşidbanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyi ölkəmizdə silsilə tədbir və layihələrlə qeyd olunur.

Avqustun 15-də Milli Kitabxanada Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş sərginin açılışı və "Azərbaycan bədii fikrinin görkəmli siması Xan qızı Xurşidbanu Natəvan" adlı elektron məlumat bazasının təqdimatı keçirilib.

Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə keçirilən tədbir çərçivəsində Mustafa Çəmənlinin "Neyçin gəlməz" və Bəylər Məmmədovun "Xurşidbanu Natəvan" kitablarının da təqdimatı olub. Hər iki kitab "Təhsil" nəşriyyatında işıq üzü görüb.

Tədbiri Milli Kitabxananın direktoru Kərim Tahirov açaraq XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın zəngin bədii yaradıcılığından bəhs edib. Bildirib ki, Natəvan Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoyub. Kərim Tahirov şairənin yubileyi ilə bağlı mərasimlərin il ərzində davam edəcəyini, o cümlədən Natəvanın vətəni Qarabağda müxtəlif tədbirlərin keçiriləcəyini deyib.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli çıxış edərək bildirib ki, Xurşidbanu Natəvan istər ictimai fəaliyyəti, istərsə də ədəbi yaradıcılığı ilə Azərbaycan xanımı üçün bir nümunədir. Şöbə müdiri Natəvanın yubileyi ilə əlaqədar Mədəniyyət Nazirliyinin zəngin tədbirlər planı hazırladığını diqqətə çatdıraraq sentyabr ayında şairənin 190 illiyinin Şuşada və digər regionlarda da təntənəli şəkildə qeyd ediləcəyini bildirib. O həmçinin "Məclisi-üns" ədəbi məclisinin bərpa olunacağını, Xurşidbanu Natəvanın keçdiyi həyat yolu, elmi fəaliyyəti və bədii yaradıcılığının tədqiqi istiqamətində işlər görüldüyünü və bu mövzuda yeni kitabların nəşr olunacağını bildirib.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli bildirib ki, Füzuli ədəbi məktəbinin ən qüdrətli nümayəndələrindən biri olan Natəvan XIX əsr Azərbaycan dilinin inkişafında da böyük rol oynayıb. Xurşidbanu Natəvanın 190 illik yubileyinin geniş şəkildə qeyd olunması dövlətimizin milli ədəbiyyata, incəsənətə, xalqımızın sənətkarlarına, görkəmli şəxsiyyətlərinə verdiyi dəyərin göstəricisidir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor İslam Qəribli çıxışında qeyd edib ki, Natəvanın hələ sağlığında 20-dək qəzəlinə nəzirələr yazılması, Mirzə Fətəli Axundzadə, Mir Möhsün Nəvvab və digərlərinin öz əsərlərində şairəni yada salması onun nə qədər böyük nüfuza malik olmasının göstəricisidir. Alim Natəvan haqqında yazdığı monoqrafiyanın bu yaxınlarda çap olunacağını deyib.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Raqub Kərimov bildirib ki, Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan parlaq istedada və qabaqcıl ideallara malik şəxsiyyət olub. Yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamış şairənin ilk vaxtlar "Xurşid" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batıb, yalnız cüzi bir hissəsi bizə gəlib çatıb. 1870-ci ildən etibarən şairə özünə "Natəvan" təxəllüsü götürərək dərin məzmunlu qəzəllərini yaradıb. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplayıb və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərib.

"Təhsil" nəşriyyatının direktoru Tural Axundov çıxış edərək Natəvanın 190 illik yubileyinə töhfə olan iki nəşr – M.Çəmənlinin "Neyçin gəlməz" və B.Məmmədovun "Xurşidbanu Natəvan" kitabları haqqında məlumat verib.

Çıxışlardan sonra Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova "Azərbaycan bədii fikrinin görkəmli siması Xan qızı Xurşidbanu Natəvan" adlı elektron məlumat bazası haqqında ətraflı söz açıb. Qeyd edib ki, elektron məlumat bazası "Prezident İlham Əliyevin Xan qızının xatirəsinin əbədiləşdirilməsinə diqqəti", "Həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxsiyyətlər Xurşidbanu Natəvan haqqında", "Əsərləri", "Filmoqrafiya", "Videoqalereya", "Fotoqalereya" bölmələrindən ibarətdir.

Sonda tədbir iştirakçıları "Xurşidbanu Natəvan – 190" adlı kitab sərgisi ilə tanış olublar.

## Natəvanın yubileyi münasibətilə silsilə materiallar hazırlanıb

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları tərəfindən "XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xurşidbanu Natəvan – 190" adlı videoçarx və "Xurşidbanu Natəvan – 190" adlı metodik vəsait, həmçinin "Şuşanın Xan qızı – Natəvan" adlı biblioqrafik icmal hazırlanıb.

Videoçarxda Natəvanın həyat və yaradıcılığı haqqında geniş məlumat verilərək şeirlərindən nümunələr təqdim olunub. Materialda şairənin xeyriyyəçilik fəaliyyəti də diqqətə çatdırılıb.

Metodik vəsait Natəvan ədəbi irsinin kitabxanalarda təbliğinə kömək məqsədilə hazırlanıb. Materialda Natəvanın 190 illik yubileyi haqqında ölkə başçısının sərəncamı, görkəmli şəxslərin şairə haqqında söylədikləri fikirlər, Natəvan irsinin kitabxanalarda təbliği haqqında məlumatlar yer alıb.

Biblioqrafik icmalda şairənin həyatı, irsi, soy-kökü, Xan qızına ithaf edilən incəsənət əsərləri və filmoqrafiya əhatə olunub.

Hazırlanan materiallar elektron formatda Gənclər Kitabxanasının saytında yerləşdirilib.

# Xalq şairi Sabir Rüstəmxanlı "Qonağımız var" layihəsində

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Qonağımız var" layihəsi çərçivəsində paytaxtın müxtəlif rayonlarında yaradıcı insanlarla görüşlər təşkil edilir. Baş idarənin təşkilatçılığı ilə avqustun 15-də Ə.Əmirov adına Mədəniyyət Sarayında (Qaradağ rayonu Lökbatan qəsəbəsi) Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı ilə görüş keçirilib.



Görüşdə Milli Məclisin deputatları Aydın Hüseynov, Səbinə Xasayeva, Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, digər qonaqlar, ictimaiyyət nümayəndələri, ədəbiyyatsevərlər iştirak ediblər.

Tədbirin əvvəlində Sabir Rüstəmxanlının həyat və yaradıcılığı haqqında məlumat verilib.

Baş idarənin rəisi İbrahim Əliyev çıxışında belə görüşlərin ədəbi mühitin inkişafına, gənclərin bədii ədəbiyyata marağının artmasına, dünyagörüşlərinin əhatəli olmasına xidmət etdiyini bildirib.

Vurğulanıb ki, Sabir Rüstəmxanlı geniş oxucu rəğbəti qazanmış "Ömür kitabı" adlı əsərin, "Tanımaq istəsən", "Xəbər gözləyirəm", "Gəncə qapısı", "Sağ ol, ana dilim!", "Qan yaddaşı", "Zaman məndən keçir" və s. şeir kitablarının, poemaların, "Atamın ruhu", "Xətai yurdu", "Göy Tanrı", "Ölüm zirvəsi (Cavad xan)" kimi romanların müəllifidir.

Görüş zamanı şair tədbir iştirakçılarının ona ünvanladıqları sualları cavablandırıb, gənclərə öz tövsiyələrini verib, onları Azərbaycan yazarlarının əsərlərini mütailə etməyə çağırıb. Xalq şairi şeirlərindən nümunələr söyləyib və ssenari müəllifi olduğu "Cavad xan" filmi haqqında danışıb.

Görüşün sonunda "Dədə Qorqud" Fondunun rəhbəri Eldar İsmayılov tərəfindən fondun təsis etdiyi "Vətən övladı" ordeni şairə təqdim olunub.

## Ali məktəblərə ixtisas seçimi başlanıb

Dövlət İmtahan Mərkəzi (DİM) avqustun 16-da Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elan edib.

DİM-dən bildirilib ki, ixtisas seçimi bütün ixtisas qrupları üzrə avqustun 28-dək aparılacaq.

İxtisas seçmək hüququ olan abituriyentlər müsabiqə şərtini ödədikləri ixtisas qrupuna (qruplarına), o cümlədən altqrupuna (altqruplarına) aid olan 15-dək ixtisasın kodunu eservices.dim.gov.az/erizebak/ixtisas1 linkində "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər.

Müsabiqədə iştirak edənlər "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma və təsdiq edilmə qaydası, müsabiqə şərtləri, ixtisas seçimi zamanı diqqət yetirilməli olan vacib məsələlər və s. haqqında ödənişsiz fəaliyyət göstərən "Məsləhət mərkəzləri"nə müraciət edə bilərlər. "Məsləhət mərkəzləri" haqqında ətraflı məlumatla DİM-in saytındakı linkdən tanış olmaq olar.

Bu il ali məktəblərə qəbul üçün ərizə verənlərin sayı artıb. Bütün qruplar üzrə ərizə verənlərin sayı ötən il ümumilikdə 78 min 622 olmuşdusa, bu il isə 99 min 533 nəfərdir.

Bunu Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ixtisas seçiminin başlanması ilə əlaqədar keçirdiyi mətbuat konfransında bildirib.

Məleykə Abbaszadə diqqətə çatdırıb ki, 2022-2023-cü tədris ili üçün ali təhsil müəssisələrinə qəbul planı 51 min yerdən çoxdur.

## Bakıdakı Rus Evinin təşkil etdiyi müsabiqələrin qalibləri Samaraya gediblər

Bakıdakı Rus Evinin təşkilatçılığı ilə keçirilən rus dili üzrə XIV olimpiadanın və gənc qiraətçilərin "Canlı klassika" beynəlxalq müsabiqəsinin qaliblərindən ibarət ikinci qrup "Salam, Rusiya!" proqramı üzrə Samara vilayətinə yola düşüb.



Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən bildiriblər ki, uşaqlar bir həftə ərzində mədəni və ekskursiya proqramı çərçivəsində Samara və Tolyatti şəhərlərində olacaqlar.

Qeyd edək ki, "Salam Rusiya!" proqramı "Rossotrudniçestvo" tərəfindən 2014-cü ildən icra edilir. Hər il proqram üzrə müxtəlif ölkələrdən 14-19 yaş arasında 700-dən çox gəncin Rusiya səfərləri təşkil edilir. Onlar Rusiyanın çoxmillətli mədəniyyəti ilə tanış olur, rus dilində təcrübəsini artırır və özlərinə dostlar qazanırlar.

## Mədəniyyət Nazirliyində yubilyar sənətkarlarla görüşlər

Avqustun 13-də Xalq artisti, görkəmli teatr rejissoru Azər Paşa Nemətovun 75 yaşı tamam olub.

Prezident İlham Əliyevin avqustun 12-də imzaladığı sərəncamla sənətkar Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif edilib.

Avqustun 12-də mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev 75 illik yubileyi münasibətilə Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti, professor Azər Paşa Nemətovla görüşüb.

Elnur Əliyev mədəniyyət naziri Anar Kərimovun təbrik məktubunu yubilyara təqdim edib, ona uzun ömür və yeni yaradıcılıq uğurları arzulayıb.

Xalq artisti diqqətə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

***



Avqustun 14-də Azərbaycan muğam sənətinin parlaq nümayəndəsi, dünya şöhrətli xanəndə, Xalq artisti Alim Qasımovun 65 yaşı tamam olub.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev yubiley münasibətilə sənətkarla görüşüb.

Mədəniyyət naziri Anar Kərimovun təbrik məktubunu Alim Qasımova təqdim edən Elnur Əliyev yubilyara möhkəm cansağlığı, sənətdə yeni uğurlar arzulayıb.

Görüş zamanı Alim Qasımovun yaradıcılıq planları, gələcəkdə nəzərdə tutulan tədbirlər də müzakirə olunub.

## Əhməd Cavadın 130 illiyi münasibətilə

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2 nömrəli filialında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istiqlal şairi, ictimai xadim Əhməd Cavadın (1892-1937) anadan olmasının 130 illiyi münasibətilə tədbir keçirilib.

Kitabxananın müdiri Zülfiyyə Əliyeva şairin həyat və yaradıcılığı haqqında məlumat verib. Diqqətə çatdırıb ki, vətənpərvər şair Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifidir. Onun misraları dövlət atributlarını vəsf və tərənnüm edərək dövlətçiliyə məhəbbət, eləcə də vətənə bağlılıq hisslərini təbliğ edir.

Tədbirin bədii hissəsində kitabxananın fəal oxucuları şairin şeirlərini söyləyiblər. Sonda Əhməd Cavadın həyat və yaradıcılığına həsr olunan "Hürriyyət şairi" adlı sərgiyə baxış keçirilib.

## "Azərbaycan filoloji fikrində Qarabağ mövzusu"

### Respublika elmi konfransı keçiriləcək

Noyabrın 1-də Bakı Dövlət Universitetinin (BDU) Filologiya fakültəsi 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin 2-ci ildönümünə həsr olunan "Azərbaycan filoloji fikrində Qarabağ mövzusu" adlı respublika elmi konfransı keçirəcək.

Bu barədə fakültədən məlumat verilib.

Elmi konfransda iştirak etmək istəyənlər Azərbaycan, türk, rus və ingilis dillərində məruzələrin tezislərini (300-350 söz həcmində) oktyabrın 1-dək təşkilat komitəsinin garabag_konfransi2022@mail.ru ünvanına göndərə bilərlər.

Konfrans Qarabağ ədəbi-mədəni mühiti, Qarabağ torpağının yetirdiyi məşhur ədəbi şəxsiyyətlər və onların yaradıcılığı (əsərlərinin ideya-məzmun və dil xüsusiyyətləri), Qarabağ mövzulu ədəbiyyatın dili və üslubu və s. istiqamətlər üzrə təşkil olunacaq.

## Minaaxtaranlar haqqında film çəkilib

C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında şərti adı "ANAMA" olan sənədli filmin çəkiliş mərhələsi başa çatıb.



Mədəniyyət Nazirliyinin sifarişi ilə istehsal olunan film işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsini həyata keçirən fədakar insanlardan – minaaxtaranlardan bəhs edir.

Filmin rejissoru və ssenari müəllifi Murad İbrahimbəyov, təsvir rejissoru Nadir Mehdiyev, icraçı prodüseri Tofiq Musayev, prodüseri Nazim Hüseynovdur.

## Ölkəmizə gələn turistlərin sayı 2,3 dəfə artıb

2022-ci ilin yanvar-iyul aylarında Azərbaycana dünyanın 171 ölkəsindən 832 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.



Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, bu ilin yeddi ayında Azərbaycana gələnlərin 26,4 faizi Rusiya Federasiyası, 21 faizi Türkiyə, 11,6 faizi İran, 6,8 faizi Səudiyyə Ərəbistanı, 4,8 faizi Gürcüstan vətəndaşları olub.

Pakistan, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna, Qazaxıstan, Küveyt, İsrail, Oman, Böyük Britaniya və Özbəkistandan gələnlərin sayı müvafiq olaraq 1-3 faiz arasında dəyişib. Digər ölkələrdən gələnlərin sayı 1 faizdən az olub.

# Klassik poeziyamızda Natəvan imzası

Sabirabad RMİ Saatlı Rayon Dövlət Rəsm Qalereyasında tanınmış şairə, xeyriyyəçi Xurşidbanu Natəvanın (1832-1897) 190 illik yubileyi ilə əlaqədar "Bədii fikrin görkəmli siması – Natəvan" adlı tədbir keçirilib. Tədbirdə qalereyanın əməkdaşları incəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan Xan qızı barədə ətraflı məlumat veriblər. Sonra rəssamlıq dərnəyinin üzvləri sənətkarın şeirlərindən nümunələr səsləndiriblər.

***



Ağcabədi RMİ Ağcabədi rayon MKS-nin Mərkəzi Kitabxanasında Natəvanın yubileyi münasibətilə keçirilən tədbirdə Ağcabədi Dövlət Rəsm Qalereyası əməkdaşlarının Şuşa ədiblərinə həsr etdikləri rəsm əsərləri nümayiş olunub.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Xan qızı – Xurşidbanu Natəvan" adlı tədbir keçirilib. Çıxış edənlər şairənin Şuşada yaşayıb-yaratdığını və öz şeirləri ilə Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərdiyini bildiriblər. Tədbirin sonunda Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş etdirilib.

RMİ-nin əhatə etdiyi Samux rayon Heydər Əliyev Mərkəzində isə "Yurdunu canından çox sevən Xurşidbanu Natəvan" adlı tədbir təşkil edilib.

# "Sənətinlə tanın"

Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzi və "Murad" Əlillər İctimai Birliyi "Sənətinlə tanın" adlı yeni layihəyə başlayıb. Rayonun Çuxanlı kənd Folklor klubunda layihənin təqdimatı keçirilib.



Layihə çərçivəsində fiziki imkanları məhdud olan uşaq və gənclərin əl işlərindən ibarət sərgi açılıb.

Layihənin təqdimatında Milli Məclisin deputatı Jalə Əhmədova, Biləsuvar RMİ-nin baş məsləhətçisi, Salyan rayonu üzrə nümayəndə Şamxal Əhmədov, "Murad" İB-nin təsisçisi Rəsmiyyə Səmədova, Salyan rayon Mədəniyyət Mərkəzinin direktoru vəzifəsini icra edən Kürçaylı Məmmədov, rayon Heydər Əliyev Mərkəzinin direktoru Nübar Bayramova və başqaları çıxış edərək layihənin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, sərgilənən hər bir əl işi fiziki məhdudiyyətli uşaq və gənclərin daxili dünyasının zənginliyini, onların istedad və qabiliyyətlərini əks etdirir. Böyük maraqla qarşılanan sərgini gün ərzində şəhid ailələri, hərbçilər, mədəniyyət işçiləri, şəhər sakinləri və qonaqlar ziyarət ediblər.

Qeyd edək ki, satış-sərginin məqsədi əlil uşaqların cəmiyyətə inteqrasiyasına kömək göstərmək, onların əl işlərinin satışına dəstək olmaqdır.

"Sənətinlə tanın" layihəsi Salyan rayon Mədəniyyət Mərkəzinin bütün filiallarında həyata keçiriləcək.

# "Bir şəhid – bir şahid"

Masallı RMİ Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində "Şuşa İli"nə həsr olunmuş tədbirlər çərçivəsində "Bir şəhid, bir şahid" tamaşası nümayiş olunub.



Yazıçı-publisist Nurəddin Ədiloğlunun "Vətən pərvanələri" pyesinin motivləri əsasında səhnələşdirilən tamaşada şəhid qardaşlar – 2016-cı ilin Aprel döyüşlərində həlak olmuş Nurlan və Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərlinin igidliyindən bəhs edilib, Ordumuzun cəsur əsgər və zabitlərinin rəşadəti obrazlı təsvir olunub.

Tamaşadan sonra çıxış edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov şəhidlərin hər zaman xalqımızın qəlbində yaşayacağını vurğulayıb. Şəhidlər Nurlan və İntiqam Əsgərlinin anası Ziba Əsgərova qəhrəman övladları ilə qürur duyduğunu deyərək tədbirin təşkilatçılarına və yaradıcı kollektivə minnətdarlığını bildirib.

Qeyd edək ki, tamaşa Masallı RMİ-nin dəstəyi, Masallı və Cəlilabad Xalq teatrlarının, həmçinin Masallı Dövlət Regional Kolleci tələbələrinin iştirakı ilə hazırlanıb. Səhnə işinin quruluş müəllifi Masallı Xalq teatrının rejissoru Cəmaləddin Əliyev, musiqi və səhnə tərtibatçıları Ruslan Zahidov və Elsevər Əliyevdir.

# Polşalı turistlər Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda

Qəbələ Dövlət Tarix-Bədii Qoruğu yerli turistlərlə yanaşı, ölkəmizə səfər edən xarici qonaqların da maraq göstərdiyi məkandır.



Qoruğu ziyarət edənlərin arasında Avropa ölkələrindən gələnlərə tez-tez rast gəlmək olar. Bu günlərdə polşalı turistlər burada olublar.

Qoruğun direktoru Zahir Kərimov bildirib ki, qonaqlar əvvəlcə Qəbələ Arxeoloji Mərkəzində sərgilənən arxeoloji materiallarla tanış olublar. Onlara mərkəzin yaradılması və bu sahədə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlərdən bəhs edilib.

Polşalı turistlər Səlbir və Qala ərazilərində aparılmış arxeoloji qazıntı sahələri ilə də tanış olublar. Qəbələ Arxeoloji Ekspedisiyasının burada apardığı arxeoloji qazıntılar, yerli və xarici arxeoloqlar tərəfindən aşkar olunan tapıntılar barədə ətraflı məlumat verilib.

# Yayın son ayı – yerlərdə mədəni həyat

## Bölgələrdən müxtəlif səpkili xəbərlər



Bərdə RMİ Bərdə rayon Mədəniyyət Mərkəzində Bərdə və Yevlax rayonlarından olan yaradıcı gənclərin, yerli şairlərin iştirakı ilə görüş təşkil olunub. Tədbirdə çıxış edən Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova bu cür görüşlərin gənclərin bədii ədəbiyyata, yaradıcılığa marağının artırılmasına xidmət etdiyini bildirib. Şairlərin, bədii qiraət ustalarının, gənc könüllülərin səsləndirdiyi şeirlər, "Qarabağ" xalq çalğı alətləri ansamblının solisti Asim Abbasov, VIII Beynəlxalq Muğam Müsabiqəsinin iştirakçıları Əmrah Məmmədov və Tahir Şəfiyevin ifaları tamaşaçılara xoş ovqat yaşadıb.

***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsinin əməkdaşları tərəfindən Quba şəhəri ərazisində yerləşən 28 May adına Mədəniyyət və istirahət parkında səyyar kitabxana xidməti təşkil olunub.

***

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə istiqlal şairi Əhməd Cavadın (1892-1937) anadan olmasının 130 illik yubileyinə həsr olunmuş "Haqqa yüksələn səs" mövzusunda tədbir keçirilib. Gənclərin İnkişaf və Karyera Mərkəzi Masallı nümayəndəliyi və mədəniyyət işçilərinin iştirak etdiyi tədbirdə Əhməd Cavadın sözlərinə bəstələnmiş mahnılar səsləndirilib.

***

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov Naftalan şəhər Heydər Əliyev Mərkəzində Goranboy və Naftalan şəhərindən olan aşıqlarla görüş keçirib. Görüşdə aşıq sənətinin inkişaf etdirilməsi, gənc nəsillərə çatdırılması və təbliği barədə söhbət açılıb.

Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı "Kitablar sənin etibarlı dostundur" adlı kitab sərgisi təşkil edib. Sərgidə müxtəlif elm sahələrini əhatə edən kitablarla yanaşı, dünya və Azərbaycan ədəbiyyatı nümayəndələrinin əsərləri də nümayiş etdirilib.

***

Şəki RMİ Oğuz rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Zərifə Əliyeva adına Oğuz rayon istirahət parkında şəhər sakinləri və turistlər üçün mərkəzin nəzdində fəaliyyət göstərən "Ailə" folklor kollektivinin konserti keçirilib.

***



Sabirabad RMİ Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyi və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə Xurşidbanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyi münasibətilə "İncə ruhlu zərif xanım – Xurşidbanu Natəvan" adlı sərgi təşkil edilib. Sərgidə muzeyin XX əsrə aid toxuculuq məmulatı cecimlər, XIX-XX əsrlərdə qadınlarımızın geniş istifadə etdiyi mis və gümüş bəzək əşyaları, XX əsrin əvvəllərinə aid olan qadın geyimləri, baş örpəkləri – kələğayı, zəkiyyə, tikmə nümunələri nümayiş olunub.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Nizami Gəncəvi adına kitabxana-klubu yeni üzv olan kiçikyaşlı oxucularla "Yayı kitabla keçirək" layihəsi çərçivəsində açıq havada görüş təşkil edib. Görüşdə kitabxananın əməkdaşı Səadət Allahverdiyeva müəssisənin fondunda yer alan uşaq ədəbiyyatı ilə oxucuları tanış edib.

***



Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Emin Məmmədovun doğum günü ilə əlaqədar "Şəhidlik ən ülvi addır" mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edənlər Emin Məmmədovun həyat və döyüş yolundan danışıb, şəhidlik zirvəsinə ucalan igidlərimizin hər biri ilə qürur duyduqlarını dilə gətiriblər. Çıxışlardan sonra şəhid haqqında videoçarx nümayiş olunub. Qəhrəmanın atası Vətən Məmmədov şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, tədbiri təşkil edənlərə təşəkkür edib.

***

Biləsuvar RMİ Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində musiqiçi, Əməkdar artist Həsənağa Sadıqovun (1950-2018) anım günü ilə əlaqədar sərgi təşkil edilib. Sərgidə sənətkara aid muzeydə qorunan musiqi alətləri, fotoşəkillər və geyimlər nümayiş etdirilib.

# Gənclər dövlətin gələcəyidir

Beynəlxalq Gənclər Günü (12 avqust) münasibətilə bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilib.



İsmayıllı Regional Mədəniyyət İdarəsi (RMİ) İsmayıllı rayon Heydər Əliyev Mərkəzi, rayon Gənclər və İdman İdarəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) İsmayıllı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Beynəlxalq Gənclər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə bir qrup gəncə fəxri fərmanlar verilib. Sonda rəsm sərgisinə baxış olub.

***

Şəmkir RMİ Daşkəsən rayon Mədəniyyət Mərkəzi, rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə gənclərin asudə vaxtının səmərəli təşkili məqsədilə silsilə tədbirlər keçirilib.

***

Bərdə RMİ Mingəçevir Şəhər Tarix Muzeyində "Azərbaycan gəncləri gələcəyimizdir" mövzusunda tədbir keçirilib. Çıxışda Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasətindən bəhs olunub.

***

Xaçmaz RMİ Quba rayon Heydər Əliyev Mərkəzi və GİKM-in Quba nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Cəmiyyətin aparıcı qüvvəsi olan gənclər" mövzusunda tədbir keçirilib. Tədbirdə Quba rayon Heydər Əliyev Mərkəzinin direktor əvəzi Sevinc Səlimova, GİKM-in Quba nümayəndəliyinin direktoru Aytac Əhmədova və digərləri çıxış edərək əlamətdar günün əhəmiyyətindən danışıblar. Çıxışlardan sonra Beynəlxalq Gənclər Gününə həsr edilmiş videoçarx nümayiş olunub.

***

Ağstafa RMİ Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Gənclər müstəqil dövlətimizin gələcəyi və qarantıdır" mövzusunda tədbir keçirilib.



Ağstafa RMİ-nin tabeliyində fəaliyyət göstərən Qazax Dövlət Rəsm Qalereyasında "Azərbaycan gəncləri tarix yazdı" adlı sərgi təşkil olunub.

Tovuz rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində də mövzu ilə bağlı tədbir keçirilib.

***



Şəki RMİ Zaqatala rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə açıq havada "Vətəni sevək və sevdirək" adlı tədbir keçirilib. Tədbirdə vətənpərvərliklə bağlı şeirlər səsləndirilib, ədiblərimizin abidələrinə baxış olub.

Əlamətdar gün münasibətilə C.Cabbarlı adına Qax rayon Mərkəzi Kitabxanasında isə sərgi təşkil edilib.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Nizami Gəncəvi adına kitabxana-klubu və Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin birgə təşkilatçılığı ilə "Gənclərin söz dünyası" adlı tədbir keçirilib. Çıxış edənlər belə tədbirlərin keçirilməsinin gənclərin yaradıcılığına olan diqqət və qayğının bariz nümunəsi olduğunu söyləyiblər.

***

Ağdaş RMİ Zərdab rayon Mərkəzi Kitabxanası və Zərdab Uşaq və Ailələrə Dəstək Mərkəzinin (UADM) birgə təşkilatçılığı ilə "Sağlam gənclik sağlam gələcək" başlıqlı tədbir təşkil olunub. Tədbirdə Zərdab UADM, rayon Heydər Əliyev Mərkəzi, Mərkəzi Kitabxana və şəhər kitabxana filiallarının əməkdaşları iştirak ediblər.

**Hazırladı: N.Məmmədli**

# Şuşaya aparan ikinci yol

## Əhmədbəyli-Füzuli-Şuşa avtomagistralının tikintisi davam etdirilir

Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81.6 kilometr uzunluğa malik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir.

Qeyd edək ki, Şuşaya aparan ikinci yol 2021-ci ildə istifadəyə verilən "Zəfər yolu"ndan 20 km qısa və daha əlverişli avtomagistral olacaq.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata əsasən, Əhmədbəyli-



Füzuli-Şuşa avtomobil yolu 1-ci texniki dərəcəyə uyğun olaraq 4-6 hərəkət zolaqlı olmaqla inşa edilir. Yol boyu 137 müxtəlif diametrli suötürücü boru, 30 yeraltı keçid, 7 körpü, 7 tunel və 9 viaduk (dərə üzərində körpü) inşa edilir.

T4, T5 və T6 tunelləri üzrə tikinti işləri son mərhələdə icra edilir. T1, T2 və T3 tunellərində də qazıntı və püskürtmə beton işləri yekunlaşıb. T1A tunelinin sol istiqaməti üzrə ümumi 1426 metr, sağ istiqaməti üzrə isə ümumi 1604 metr məsafədə qazma və dəmir-beton dəstəkləmə işləri görülüb.

Həmçinin layihə üzrə tikintisi nəzərdə tutulmuş 9 viadukun 8-də inşaat işləri davam etdirilir. Ümumilikdə layihə üzrə süni qurğu işlərinin 70 faizi görülüb.

Yol boyu torpaq işlərinin icrası da davam edir. Yol əsası hazır olan hissələrdə asfaltlanma işləri aparılır. Bundan başqa, "Zəfər yolu"nun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi icra olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq Əhmədbəyli-Füzuli-Şuşa avtomagistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

# Teatrdakı xoşbəxt adamla yubileysayağı söhbət

## "Teatrı sevməsən, öz sənətinə bağlı olmasan, orada necə davam gətirmək, işləmək, belə mürəkkəb canlı orqanizmi necə idarə etmək olar?.."

Bir ailəni təsəvvür edin. Böyük, qaynar həyat yaşayan ailəni. Bu ailənin çoxlu üzvü var ki, onların da hər biri öz problemini həll etməyə can atır, öz iddiasını yeritmək istəyir, öz arzusuna çatmağın xəyalındadır. Təsəvvür edirsiniz, belə bir ailəni idarə etmək həmin ailənin böyüyündən nə qədər müdriklik, səbir, enerji tələb edir? Təsəvvür etdinizsə, o zaman bu işin öhdəsindən məharətlə gələn qəhrəmanımızı təqdim edə bilərik: Xalq artisti, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktor-bədii rəhbəri, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri Azər Paşa Nemətov.

Azər Paşa müəllimlə onun 75 illik yubileyi ərəfəsində, teatr cameəsinin sakit mövsümünün tən ortasında görüşdük. Müsahibə üçün vədələşəndə zarafatla dedi ki, gözətçiyəm, şənbə günü (!) elə teatrda olacağam. Əslində, Azər Paşa müəllimin "gözətçiyəm" kəlməsinin arxasında hansı mənanın gizləndiyini bilirdim, yazının sonunda oxucular da biləcək.

… Yayın cırhacırında ilboyu həyatın qaynadığı, indisə səssizliyə qərq olmuş bu binaya gəlmək, xidməti qapıdan binaya daxil olmaq, dəhlizlərdə öz addımlarının səsini eşitmək adama qəribə gəlir. Azər Paşa müəllimin kabinetinə çatanadək az qalıram ki, məni istehza ilə süzən sükutu cırnatmaq üçün deyim ki, "sənin də dövranına az qalıb, sentyabr yoldadır".

Nəhayət, Azər Paşa müəllimin otağına çatıram. Parametrlərinə görə böyük kollektiv rəhbərinin iş otağının ölçülərinə heç uyğun gəlmir bura. Yəqin ki, belə yaxşıdır. Azər Paşa müəllim nə qədər ciddi rəhbər, idarəçiliyi bacaran direktor olsa da, ilk növbədə rejissordur və… Və onun əsas iş yeri məşq otağı, bir də tamaşa salonunda səhnənin ən geniş, ən yaxşı göründüyü cərgədir.

*– Azər Paşa müəllim, xoş gördük. Üç 25 yaşınız da mübarək!*

– Çox sağ olun! Siz üç 25 deyirsiniz, amma mən deyirəm ki, əsrin dörddə üçü geridə qaldı…

*– Necə adlandırmağımız fərq etməz: maraqlı, zəngin, təxminən yarım əsri ölkənin gözü qarşısında keçən bir ömür yaşamısınız. Əgər şərti olaraq, geridə qalan 75 ili üç mərhələyə bölsək, həmin iyirmibeşilliklərdə ən böyük qazanclarınız və itkiniz nə oldu? Onları necə xarakterizə edərsiniz?*

– Düzü, bu barədə heç vaxt düşünməmişəm, yəni ömrümü, yaşadıqlarımı mərhələlərə bölüb təhlil etməmişəm. Çünki mənim üçün yaşadığım hər il vacibdir, sənətimdə atdığım hər addım mühüm mərhələdir. Məncə, ömrümü şərəflə yaşamışam, səmimi olmuşam, heç vaxt vətənimə, sənətimə xəyanət etməmişəm. Çox gözəl tərbiyə almışam. Təkcə davranış, ədəb-ərkan baxımından yox, həm də mənəvi baxımdan tərbiyəm mükəmməl olub.



Azərbaycanın bütün böyük şair və yazıçılarını, sənət adamlarını evimizdə görmüşəm. Dünyanın ən müxtəlif ölkələrindən gələn sənətkarlar, rejissorlar, aktyorlar evimizdə qonaq olub, onların quruluşlarına, ifalarına baxmışam. Böyük yunan faciə aktrisası var idi: Aspasiya Papatanasiu. Bakıda qastrolda olarkən bizim evə qonaq gəlib, axşam da onun oyununu salondan izləmişəm. Şəxsi tanışlığı, ünsiyyəti arzu etdiyim artıq yetkin yaşlı görkəmli sənətkarlarla dostluq etmişəm, yeni onlar özləri məni seçmişdilər. Əgər soruşsanız ki, xoşbəxtəm, ya yox. Cavab verəcəyəm ki, bəli, mən xoşbəxt adamam. Heç kimin qarşısında baş əyməmişəm, işimin xatirinə belə, kimsəyə yaltaqlıq etməmişəm, düzdür, bu, yaxşı söz deyil, amma bu, belədir. Gözləmədiyim və gözlədiyim zərbələri alanda da möhkəm dayanmışam, əyilməmişəm. Sındırmaq istəyiblər, hətta elə zənn ediblər ki, məni sındırıblar da, yenə də yolumdan dönməmişəm, istədiyimə çata bilmişəm. Mənə istəklərimi həyata keçirməyə imkan verməyiblər, yenə də geri çəkilməmişəm. Sonda qalib gəlmişəm.

*– Deyəsən, ömrünüzün o vaxtkı Leninqrad səhifəsi də bu cür zərbələrdən sonra açılmışdı…*

– Teatrda başıma elə oyunlar gəldi ki!... Fikirləşdim ki, bəlkə mən teatrı bilmirəm, tamaşa qurmağı bacarmıram? Gedim, özümü başqa bir mühitdə sınayım. Getdim. O zaman Leninqradda Akademik Gənc Tamaşaçılar Teatrında çalışmağa başladım. Məlum oldu ki, mən düz yoldayımışam. Tamaşa verdilər, – qurdum. Bəyənildi, mənimlə həsablaşmağa başladılar. Həmin teatrda görkəmli aktyorlar çalışırdı. Dostoyevskinin "Cinayət və cəza" əsəri əsasında çəkilmiş filmdə Raskolnikov rolunu oynamış Georgi Taratorkin kimi, Yevgeni Lebedov kimi məşhur aktyorlar mənim tamaşalarımda çıxış ediblər. Orada Kiril Lavrov kimi məşhur aktyorla dostlaşdım. Bakıda işləyəndə Yusif Vəliyev kimi nəhəng cavan Azər Paşanı öz dostu hesab edirdi.

*– Leninqraddan qayıtmağınıza peşman olmadınız ki?...*

– Məni Bakıya dəvət etdilər, amma teatra yaxın qoymadılar, işsiz qaldım. Mən də bekar durmadım, bir zirzəmi tapdım, oranı təmir etdim, zirzəmi teatrı yaratdım. Kimsəyə nə şikayət etdim, nə də qapı döydüm. Kimisə narahat etməkdən xoşum gəlmir. Ola bilər ki, kimlərsə mənim varlığımdan, iş başında, teatrda olmağımdan narahatdır, – bu da onların problemidir, mənim yox.

*– Dediniz ki, arzularınızın qarşısında çox vaxt sədd çəkilib, siz də onu aşmısınız. Quruluş vermək istədiyiniz elə bir əsər var ki, baş qəhrəmanını oynayacaq aktyoru görmədiyiniz üçün onu səhnələşdirə bilmirsiniz?*



– Yooxxx… Sadəcə, "Hamlet"i tamaşaya qoymağı çox istəyirdim. İki dəfə qarşımı kəsdilər, üçüncü dəfə ürəyim istəyən tamaşanı səhnələşdirə bildim.

*– Torpağı sanı yaşayasınız, bir mərhum rejissorumuzdan vaxtilə müsahibə alanda demişdi ki, rejissor teatrı yalnız premyera günü sevir. Bəs siz necə düşünürsünüz?*

– Yalnız premyera günü? Yox, razı deyiləm. Teatrı sevməsən, öz sənətinə bağlı olmasan, orada necə davam gətirmək, işləmək, belə mürəkkəb canlı orqanizmi necə idarə etmək olar?

*– Müsahibəyə keçməzdən əvvəl xoş-beş edərkən dediniz ki, teatr bir ailədir. Ümumilikdə götürsək, çox mürəkkəb xarakterlərin toplaşdığı bu teatr ailəsini ədalətli idarə edəcək ağbirçək, ağsaqqal necə olmalıdır?*

– Ağbirçək yox, ağsaqqal!

*– ??? Uzun illər öncə, bir rus teatr tənqidçisinin belə bir fikrinə rast gəlmişdim ki, qadın rejissor sənətini seçibsə, o ya rejissordur, ya da qadın. Kifayət qədər mübahisəli fikirdir. Yəni siz də belə düşünürsünüz?*

– Rejissor, dirijor, hətta şef aşpaz… Tək-tək qadın olar ki, bu işlərin öhdəsindən gəlsin. Belə məsuliyyətli işi bacarmaq qadın üçün çox çətindir. Kəşfiyyatçı, snayper peşələri qadın xarakterinə daha çox uyğun gəlir, nəinki dirijorluq, ya da rejissorluq. Mən belə fikirdəyəm ki, qadın onsuz da qəliz, çətin tale yaşayır, əsl kişi peşəsi sayılan bu işləri ona yükləmək heç düzgün deyil.

*– Azər Paşa müəllim, teatrı idarə etmək sizin enerjinizi daha çox alır, ya tamaşa qoymaq?*

– Bu vəzifələrin hər ikisi ayrılıqda çətin işdir, amma bacarırsansa, Allah da qismət edirsə, öhdəsindən gəlmək mümkündür…

*– Axı, siz təkcə bu teatrda çalışmırsınız… Teatr Xadimləri İttifaqının da rəhbərisiniz. Yəni teatr problemləri hər zaman sizinlədir…*

– İttifaqda teatrların yox, ittifaq üzvlərinin problemləri ilə məşğul oluruq. Tədbirlər, festivallar keçirmək, gənclər üçün sənət meydanı açmaq bizim işimizdir. Onlar üçün yaradıcılıq laboratoriyaları təşkil etmişik. Onların işləmək həvəsini, bacarığını görəndə fikirləşirsən ki, nə yaxşı bu işi etdik. Gənclər dramaturgiyadan tutmuş aktyorluğadək görkəmli sənətkarların ustad dərslərində iştirak edirlər, biliklərini artırırlar, bəziləri isə özünü yenidən kəşf edir.

*– Gənclər demişkən, siz gərək ki, Mədəniyyət və İncəsənət Universitetində də dərs deyirsiniz…*

– Deyirdim. Keçən ildən universitetdən ayrılmışam. Teatrda və ittifaqda öyrənmək istəyən gənclərlə işləmək kifayət edir. Mənim ardıcıllarım elə onlardır.

*– Artıq yeddi ildir ki, Akademik Milli Dram Teatrına rəhbərlik edirsiniz. Bəlkə bu illərdə teatrda sizin gəlişinizlə başlayan yeniliklərdən danışaq…*

– Yox, özümü tərifləmək istəmirəm (gülür).

*– Məncə də… Əslində, görünən dağa nə bələdçi?... Yubiley elə bir məqamdır ki, insan özü üçün istədiklərini ucadan dilinə gətirəndə, arzularından danışanda normal qarşılanır…*

– Ən birinci istəyim cansağlığıdır. İstəyirəm enerjim, həvəsim ömrüm boyu tükənməsin ki, işləyim, teatra xidmət edə bilim. Bir də ki… Ən böyük arzularımdan birinə çatmışam. İllərdir, dua edirdim ki, ay Allah, bircə Qarabağın azad olunduğunu görüm, o torpaqlara səfər etmək mənə qismət olsun! Ali Baş Komandanımızın siyasəti, müzəffər Ordumuzun hünəri sayəsində bu arzum da çin oldu! Şuşaya ilk ayaq basanlardan biri də mən oldum.

*– Adətən, yay mövsümündə yubiley keçirmirlər. Yəqin ki, payızda Azər Paşa Nemətovu yubilyar kürsüsündə görüb alqışlaya biləcəyik…*

– Yox, şəxsən mənim heç bir təntənəli yubiley, ad günü keçirmək fikrim yoxdur. Ömürdür, yaşayıram, yaradıram. Ömür möhlət verdikcə də belə olacaq.

***

Bu yazımızda biz qəsdən Azər Paşa Nemətovun səhnələşdirdiyi əsərlərin nə adını çəkdik, nə yaradıcılıq bioqrafiyasını faktlarla vərəqlədik. Sadəcə, yubiley öncəsi bir teatr fədaisi ilə söhbət etdik ki, bu söhbət də taleyin gərdişindən yubilyarın ad günündən sonra işıq üzü görür. Həm də görkəmli rejissorumuz 75 yaşına ala biləcəyi ən böyük hədiyyəyə layiq görüləndən sonra. Bu günədək Azərbaycan teatrı qarşısındakı xidmətləri "Şöhrət", II dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə qiymətləndirilmiş sənətkar yubileyi ərəfəsində Prezident İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni ilə də təltif edilib.

Elə bu məqamda Azər Paşa müəllimin özü üçün "gözətçiyəm elə bil, hər gün teatrdayam" deyimini sözün üst qatında görünməyən tərəfdən açıqlamaqda mənə var: əslində, Azər Paşa müəllim teatr ənənələrini qoruyan, yenilikləri teatrda görmək istəyən və görmək istədikləri bu məbədə gətirən, bu məbədin üstündə yarpaq kimi əsən teatr adamıdır.

Ötən teatr mövsümündə müəllifi olduğu, 44 günlük Vətən müharibəsinə həsr edilmiş "Zəfər yolu" tamaşası da göstərdi ki, ideya yaranırsa, onu həyata keçirməyə enerji, həvəs, səbir varsa, deməli, doğum şəhadətnaməsində göstərilən tarixin bu günümüzdən nə qədər uzaq olması, sadəcə, quru faktdır… Və avqustun 13-də Azər Paşa müəllimin 75 yox, elə üç 25 yaşı tamam olub.

Buna görə də yubileysayağı söhbətimizin sonunda deyirik: Ustad, ömrünə elə "Zəfər yolu" ilə davam et!...

**Gülcahan Mirməmməd**

# "Təbiəti yaşıla boyayaq"

Xətai Sənət Mərkəzində uşaq, yeniyetmə və gənclər arasında "Təbiəti yaşıla boyayaq" adlı rəsm sərgisi keçirilib. Sərgi Xətai Rayon Gənclər və İdman İdarəsinin təşəbbüsü, YAP Xətai rayon təşkilatı və rayon İcra Hakimiyyətinin dəstəyi ilə gerçəkləşib.

Gənclər və İdman İdarəsinin rəis müavini vəzifəsini müvəqqəti icra edən Elvin Orucov tədbir iştirakçılarına sərgi haqqında ətraflı məlumat verib.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov bu cür sərgilərin keçirilməsinin gənclərin ekologiya və ətraf mühitlə bağlı maarifləndirilməsi, istedadlı və yaradıcı gənclərin aşkar edilməsi və dəstəklənməsi baxımından əhəmiyyətini vurğulayıblar.

Sonra sərgiyə baxış keçirilib. Sərgi iştirakçılarına diplomlar təqdim edilib.





# Qadınlar haqqında və qadınların müəllifliyi ilə

## "Sevil" sənədli filmlər festivalı keçirilir

Azərbaycan Kinematoqrafçılar İttifaqı, USAİD, ANİMAFİLM, Azərbaycanda Fransız İnstitutu və digər qurumların dəstəyi ilə 13-20 avqust tarixində "Sevil" Beynəlxalq Qadın Sənədli Film Festivalı (Sevil BQSFF) keçirilir. Üçüncü dəfə təşkil olunan festivalın adı Cəfər Cabbarlının "Sevil" pyesindən götürülüb.

Festival çərçivəsində nümayiş olunan filmlərdə əsasən gender məsələlərinə toxunulur. Festivalın məqsədi sənədli filmlər və müzakirələr vasitəsilə gender məsələlərini diqqət mərkəzində saxlamaqdır.

"Sizdən bizə kim düşə?" devizi ilə keçirilən festivalın filmləri Bakı, Şəki və Lənkəran şəhərlərində nümayiş olunur.




Filmlər "Ən yaxşı uzun metrajlı film", "Ən yaxşı qısametrajlı sənədli film" və "Ən yaxşı yerli sənədli film" kateqoriyası üzrə yarışır. Müxtəlif ölkələrdən kinematoqrafçıların filmləri orijinal dildə, azərbaycanca altyazı ilə təqdim edilir.

"Sevil" BQSFF Almaniyanın "goEast" film festivalı ilə əməkdaşlığa da başlayıb. Festivalın qalib rejissoru "goEast" tərəfindən təşkil edilən "East-West Talent Lab" yarışmasında iştirak haqqı qazanacaq.

Avqustun 15-də Bakıdakı "Landmark" hoteldə rejissor Hanna Polakın sənədli film dünyasına səs-səda salan "Sincarın mələkləri" filmi nümayiş olunub. Film İraqın şimalında İŞİD-in hücumundan möcüzəvi şəkildə sağ qalan Hənifə və beş bacısının həyatından bəhs edir. Hanna Polak "Leninqrad uşaqları" filmi ilə Oskar və Emmi mükafatları laureatıdır. Onun filmləri "HBO America", "HBO Europe", "Canal+", NHK və başqa platformalarda nümayiş olunub.

Festival proqramında film nümayişləri ilə yanaşı, ustad dərsləri, müzakirə və digər tədbirlər də yer alıb.

**Lalə Azəri**

# ADMİU-da doktorantura səviyyəsində kadrlar hazırlanacaq

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) publik hüquqi şəxsə çevrilib və Nizamnaməsi təsdiq edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı avqustun 12-də Baş nazir Əli Əsədov tərəfindən imzalanıb.

ADMİU-nun Nizamnaməsində bakalavriat səviyyəsi üzrə genişprofilli ali təhsilli mütəxəssislərin hazırlanması, magistratura təhsil səviyyəsində ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi, eləcə də doktorantura təhsil səviyyəsində yüksəkixtisaslı elmi kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi kimi fəaliyyət istiqamətləri nəzərdə tutulub.

# "Kilimarası"nın kukla tamaşası nümayiş etdirilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Kürdəxanı qəsəbə Mədəniyyət evində (Sabunçu rayonu) azyaşlı uşaqlar üçün "Çörək" adlı kukla tamaşası nümayiş etdirilib.



Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzi (Sabunçu rayonu Maştağa qəsəbəsi) "Kilimarası" kukla teatrının təqdim etdiyi tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

Baş idarədən bildirilib ki, tamaşanın nümayişi olunmasında əsas məqsəd yay tətili ilə əlaqədar uşaqların asudə vaxtlarının səmərəli keçməsini təmin etmək, həmçinin uşaqlara xeyirxahlıq, vətənpərvərlik, mədəniyyətə, incəsənətə məhəbbət aşılamaqdır.

№58-59 (1932)
17 avqust 2022
www.medeniyyet.az

# Tanınmış kino rəssamı Arif Məhərrəmov dünyasını dəyişib

Azərbaycan təsviri sənətinin tanınmış nümayəndəsi, Əməkdar rəssam Arif Məhərrəmov avqustun 9-da, 74 yaşında vəfat edib.



Arif Əli oğlu Məhərrəmov 5 avqust 1948-ci ildə Göyçə mahalında dünyaya göz açıb. 1972-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, 1981-ci ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rəssamlıq fakültəsini bitirib.

Təhsilini başa vurduqdan sonra "Azərbaycanfilm"də çalışıb. Kinostudiyada bir sıra bədii filmlərin və cizgi filmlərinin rəssamı olub. "İşgüzar səfər" (1982, bədii film) , "Qocalar, qocalar (1982, bədii film) , "Münəccimin şagirdi" (1983, animasiya filmi), "Kitabi-Dədə Qorqud. Səkrəyin dastanı" (1990, animasiya filmi), "O dünyadan salam" (1991, bədii film), "Molla Nəsrəddin lətifələri" (1993, animasiya filmi), "Biz qayıdacağıq" (2007, bədii film), "Qala" (2008, bədii film), "Mənim balaca şahzadəm" (2018, animasiya filmi) və s. ekran əsərlərinin bədii tərtibatında rəssam özünəməxsus dəst-xətti ilə seçilib.

Arif Məhərrəmov bir müddət Latviyanın paytaxtı Riqada yaşayıb və yaradıcılığını orada davam etdirib, silsilə qrafika və rəngkarlıq tabloları yaradıb, sərgilərdə iştirak edib. Azərbaycanla əlaqəsini də kəsməyib. Əsərlərində doğma torpağının tarixi, qaçqınlıq həyatı yaşayan xalqının və işğala məruz qalmış vəteninin ağrı-acısını əks etdirib.

2000-ci illərin əvvəllərində rəssam İstanbulda yaşayıb-yaradıb. 2005-ci ildə Azərbaycana qayıdıb, həm kino-multiplikasiya sahəsində, həm də dəzgah rəngkarlığı sahəsində yaradıcılıq fəaliyyətini davam etdirib.

Arif Məhərrəmov 1982-ci ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul edilib, 2000-ci ildə respublikanın "Əməkdar rəssam"ı adına layiq görülüb.

Allah rəhmət eləsin.

# Xor sənətinin inkişafına töhfələr verən sənətkar

## Eduard Novruzov – 95

Musiqi mədəniyyətimizin inkişafında əməyi olan sənətkarlardan biri də Əməkdar incəsənət xadimi, professor Eduard Novruzovdur. Onun adı Azərbaycan Dövlət Xor Kapellasının yaradıcısı kimi musiqi tariximizə düşüb. Vaxtilə bu musiqi kollektivi SSRİ-nin ən yaxşı xor kollektivləri sırasında yer alıb. Sənətkarı anadan olmasının 95 illiyi münasibətilə yada saldıq.



Eduard Novruzov (sağda) bəstəkar Oqtay Zülfüqarovla

Eduard Beylər oğlu Novruzov 1927-ci ildə Bakı şəhərində dünyaya göz açır. Erkən çağlardan təsviri sənətə, musiqiyə maraq göstərir. Onun da taleyinə gəncliyində İkinci Dünya müharibəsinin od-alovundan keçmək yazılır. SSRİ ordusu sıralarında Almaniyaya qədər gedib çıxır. Orada kirxada uşaqların oxumasına, orqan alətinin səsinə qulaq asır və bərk təsirlənir. Müharibə başa çatdıqdan sonra vətənə dönür.

Eduard Novruzov A.Zeynallı adına Bakı Musiqi Texnikumuna daxil olur. Təhsilini başa vurduqdan sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında oxuyur. L.Frolovanın dirijorluq sinfində bu sənətin sirlərinə yiyələnir.

Araşdırmalarda qeyd edilir ki, o zaman konservatoriyanın Xor dirijorluğu kafedrasının müdiri A.Yurlov olub. O, Azərbaycanda cəmi iki il (1954-1956) fəaliyyət göstərsə də, respublikamızda xor sənətinin inkişafında, müxtəlif təhsil ocaqlarında və müəssisələrdə özfəaliyyət xor kollektivlərinin yaranması üçün böyük səy göstərib. Onun təsiri altında tələbələr bədii özfəaliyyət kollektivləri ilə işləməyə başlayıb.

Eduard Novruzov tələbəlik illərində Leytenant Şmidt adına Zavodda fəhlə gənclərdən ibarət özfəaliyyət xoru təşkil edir. Onun rəhbərliyi altında qısa zamanda bu xor Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərlərini öyrənir. Sonra SSRİ-də keçirilən gənclər festivallarında çıxış edir və mükafatlar qazanır. 1957-ci ildə E.Novruzov "26 Bakı komissarı klubu"nun nəzdində opera studiyası yaradır. O zaman opera tamaşalarının ifaçıları əsasən konservatoriyanın tələbələrindən ibarət idi. Dekorasiyalar ifaçıların özləri tərəfindən hazırlanırdı. Hətta kostyumları da hər ifaçı özü üçün tikdirirdi. Studiyaya Dövlət Opera və Balet Teatrının da ən yaxşı musiqiçiləri dəvət olunurdu. Bu studiyanın səhnəsində C.Verdinin "Traviata", J.Bizenin "Karmen", Ş.Hunonun "Faust" operaları nümayiş olunaraq tamaşaçıların diqqətini cəlb edə bilir. Sonralar bu studiya Xalq opera teatrı adlandırılır. 60-cı illərin sonunda burada Dövlət Opera və Balet Teatrında heç vaxt səhnələşdirilməyən M.Qlinkanın "Ruslan və Lyudmila", J.Bizenin "Mirvari axtaranlar" və s. əsərlər nümayiş olunub. Anşlaqla keçən bütün tamaşaların dirijoru hər zaman E.Novruzov olub. O, nəinki xormeyster və dirijor olub, eyni zamanda tamaşaların rejissoru və rəssamı kimi də fəaliyyət göstərib.

E.Novruzov Azərbaycan Dövlət Konservatoriyasını bitirdikdən sonra Bakı Musiqi Texnikumunun Xor dirijorluğu şöbəsində pedaqoji fəaliyyət göstərir. İxtisas fənni dirijorluqdan başqa o, bloka daxil olan bir sıra fənləri – xorşünaslıq, xor partituralarının oxunuşu, xorla işin metodikası və s. tədris edir.

1962-ci ildə E.Novruzov Azərbaycan Dövlət Konservatoriyasının Xor dirijorluğu kafedrasında işləməyə dəvət olunur. Onun dərsləri emosional və maraqlı keçir. Tələbələr böyük maraqla onun apardığı opera tamaşalarında iştirak edir, eyni zamanda çalışdığı xor kollektivlərində xor ifaçılığı təcrübəsi keçirlər.

Araşdırmalarda o da qeyd edilir ki, Azərbaycanda xor kapellasının yaradılmasına təşəbbüs göstərənlər çox olub. Ancaq müxtəlif səbəblərdən bu kollektiv öz fəaliyyətini davam etdirə bilməyib. 1960-cı illərin ortasında Azərbaycanda artıq kifayət qədər professional vokalçı və ilk xormeysterlər yetişir. 1966-cı ildə E.Novruzov həmin professional ifaçıları bir araya gətirib Azərbaycan Dövlət Xor Kapellasını yaratmağa müvəffəq olub.

E.Novruzov bu kollektivə 1966-80 və 1985-93-cü illərdə rəhbərlik edib. Qeyd edək ki, ilk günlərdən kapella respublikanın aparıcı xor kollektivlərindən biri olub. Onun gərgin və dolğun fəaliyyəti sayəsində Azərbaycan Dövlət Xor Kapellası keçmiş ittifaq məkanında şöhrət qazanıb. Kapellanın repertuarında Azərbaycan və dünya bəstəkarlarının əsərləri yer alıb. Kollektivin yüksək professionallığı sayəsində C.Cahangirovun, R.Mustafayevin, Q.Qarayevin, A.Əlizadənin, V.Adıgözəlov və başqa bəstəkarlarımızın monumental əsərləri ifa olunub.

Sənətkarın Azərbaycan musiqisinin inkişafındakı əməyi yüksək qiymətləndirilir. Ona respublikanın "Əməkdar incəsənət xadimi" fəxri adı verilir.

Musiqi xadimi dirijorluq sənətinə dair kitab da yazıb. 1989-cu ildə müəllifin "Dirijorluq və estetika" kitabı işıq üzü görüb.

Professor Eduard Novruzov 1993-cü ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Anadolunun ruhani memarının xatirəsinə

## Nevşehirdə Bektaş Əfəndi türbəsi təmirdən sonra ziyarət üçün açılıb



Anadolunun ruhani memarı Hacı Bektaş Vəlinin (1209-1271) dünyadan köçməsinin 751-ci ildönümü ilə bağlı xatirə mərasimi keçirilib. Avqustun 13-də Türkiyənin Nevşehir şəhərinin Hacıbektaş rayonunda keçirilən mərasimdə Prezident Rəcəb Tayyib Ərdoğan da iştirak edib.

Mərasimdə tarixi Bektaş Əfəndi türbəsi də əsaslı təmir-bərpadan sonra yenidən ziyarət üçün açılıb. Türbənin bərpa layihəsi Türkiyə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilib.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı deyib: "85 milyon insanımızın hər biri ölkəmizin bərabərhüquqlu vətəndaşlarıdır. Bəzi Avropa ölkələri ələvi-Bektaşi camaatı və qrupları üzərində çirkin oyunlar oynayır, xalqımızın insanlarını bir-birinə qarşı qoymaq istəyir. Biz birlikdə hər cür məkrli və iyrənc oyunu pozacağıq. Ankarada bir sıra cəm evlərində - ələvilərin ziyarətgahlarında oldum. 8740 müraciət qəbul etdik ki, bunların 5600-ü tez bir zamanda yerinə yetirildi. Digər tələblərlə bağlı isə Daxili İşlər, Mədəniyyət və Turizm, Ədliyyə nazirliklərimiz birgə işləyir. Bundan əlavə, yaxın vaxtlarda müxtəlif vilayətlərimizdə təməli qoyulan və tikintisi başa çatan 8 ələvi məscidinin də birgə açılış mərasimini keçirəcəyik. Anadolu torpaqlarında mənəvi irsimizə nə qədər çox bağlı olsaq, gələcəyimizə də bir o qədər inamlı baxa bilərik...".

Son illər görülən təmir-bərpa işləri haqqında məlumat verən mədəniyyət və turizm naziri Mehmet Ersoy isə bildirib ki, keçən il "Kadıncık Ana Evi" bərpa və təmirdən sonra ziyarətçilərin ixtiyarına verilib. Bu il isə Bektaş Əfəndi türbəsinin təmir və bərpa işləri yekunlaşdıraraq ziyarətə açırıq. Nazir diqqətə çatdırıb ki, tarixi abidənin köklü problemləri, o cümlədən rütubət problemi aradan qaldırılıb, drenajlar yenilənib: "Bu gündən etibarən abidə orijinal vəziyyətinə uyğun olaraq ziyarətçilərin üzünə açılır. Gələn il isə Atatürk Evinin təmir işlərinə bağlayacağıq...".

Qeyd edək ki, Səlcuqlu memarlıq üslubunda yonma daşdan tikilmiş Bektaş Əfəndi türbəsində təmir-bərpa işləri 2021-ci ilin iyul ayında başlanmışdı. Bərpa işləri çərçivəsində türbənin çöl hissəsinin zədələnmiş birləşmələri təmir edilib, bütün çöl hissəsi qumlama texnikası ilə təmizlənib. Türbənin daxili divarlarına vurulmuş suvaqlar tamamilə sökülərək divarlar ilkin teksturasına qaytarılıb, qurumuş suvaqlar üzərində qələm-naxış işləri görülüb. Türbədən kənarda yerləşən dərviş türbəsinin daşları da yenilənib və türbə daş səki ilə əhatə olunub.

**Mehparə Sultanova**
**Ankara**

# "Dədə Qorqud" eposu haqqında yeni tədqiqat

AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoyun "Dədə Qorqud" eposu. Qəhrəmanın ölüb-dirilməsi" monoqrafiyasının birinci hissəsi çapdan çıxıb.

Kitabda Oğuz elinin "Tanrı alqış-qarğışı" modeli əsasında "toy" təsnifat//yaradılış ritualından keçirilməsi, Oğuz yeniyetmələrinin ərgənlik həddinin yoxlanılması, advermə, bəylik statusunun istənilməsi, mifik hamilərin ölmüş Buğacı yenidən dünyaya gətirmələri, Dirsə xanın ölüb-dirilməsi və digər məsələlər tədqiq olunub.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabın redaktoru filologiya elmləri doktoru, professor Ramazan Qafarlı, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, dosentlər Hikmət Quliyev və Səfa Qarayevdir.

# Puşkin və Şuşa

Rus şairi Aleksandr Sergeyeviç Puşkin Qafqaza iki dəfə səyahət etmişdi: birinci dəfə hakimiyyəti və hökumət məmurlarını həcv etdiyinə görə 1820-ci ildə xidməti təyinat adı ilə Rusiyanın cənubuna sürgün edilən zaman, ikinci dəfə 1829-cu ildə. İlk səfərində yalnız Şimali Qafqazın Mineral Sularında olmuş, ikinci səyahətində isə daha cənuba – Qafqazın içərilərinə doğru gəlmişdi...



Tədqiqatçı-jurnalist Vasif Quliyevin "Puşkin və Şuşa" məqaləsində bu barədə söhbət açılır. AZƏRTAC məqaləni ixtisarla təqdim edib.

İki həftə – mayın 26-dan iyunun 10-na qədər Tiflisdə qalan Aleksandr Puşkin rus ordu hissələri ilə Türkiyənin Ərzurum şəhərinə qədər gedib çıxmışdı. 1829-cu ildəki Qafqaz səfəri şairin yaradıcılığında müstəsna rol oynamışdır. O həm birinci, həm də ikinci səyahətində Fazil xan Şeyda, Abbasqulu ağa Bakıxanov və başqa azərbaycanlı ziyalılarla tanış olub dostlaşmış, yol qeydlərində təzə tanışlar haqqında xeyli məlumat vermişdi. Şair, həmçinin rus ordusunun tərkibində döyüşən könüllülərdən ibarət Qarabağ müsəlman polkunun birinci yüzlüyünə başçılıq edən və sonralar polkovnik rütbəsinə qədər yüksəlmiş, bir sıra döyüş orden və medalları ilə təltif olunmuş Fərəculla bəy Uğurbəyovla və məşhur Cavanşir nəslinin hərbçi nümayəndəsi, yüksək qəhrəmanlıq nümunəsi göstərərək yaralı rus zabitini döyüş meydanından çıxarıb təhlükəsiz yerə aparan iyirmi yaşlı poruçik Fərhad bəylə də yaxından tanış olmuşdu. Onların döyüş meydanındakı göstərdikləri cəsurluq şairi vəcdə gətirmiş və onların hər ikisini general Rayevskinin çadır-qərargahında alqışlamışdı. Şair bu barədə "Ərzuruma səyahət" əsərində də bəhs etmişdi...

Peterburqa qayıdandan sonra Puşkinin şərəfinə verilən ziyafətlərin birində o, dostlarına özünün Ərzuruma səyahətindən danışır, Qafqazda gördüklərindən, azərbaycanlılarla tanışlığından, hərb meydanlarında şahidi olduğu şuşalıların igidliyindən heyrətlə və məftunluqla söhbət açır, onların döyüş səhnələrini təsvir edir. Məclisdə iştirak edən Novikov soyadlı bir rəssam dostu şairin obrazlı təsvirindən istifadə edərək dərhal Fərhad bəylə Fərəculla bəyin portretlərini çəkib, ona verir. Bu sənət əsərlərinin çox uğurlu alındığını görən şair rəsmlərinin qəhrəmanlarına çox bənzədiyini etiraf edərək şəkillərin altında öz xətti ilə həmin azərbaycanlı dostlarının adını yazıb.

...1899-cu ilin may ayında Rusiya, o cümlədən də, bütün Qafqaz Aleksandr Sergeyeviç Puşkinin anadan olmasının 100 illik yubileyini bayram edirdi. Ölkədə elə bir qəza şəhəri, ya da bir mədəni mərkəz yox idi ki, orda şair anılmasın, onun şərəfinə yığıncaqlar keçirilməsin.

Həmin tarixi yubiley may ayının 26-da Şuşa Realnı Məktəbində də xüsusi təntənə ilə qeyd edildi. Bura yerli ziyalılar, mülki və hərbi idarələrin qulluqçuları, şagirdlərin valideynləri, şəhərin qonaqları da dəvət olunmuşdular. Tədbir məzmunca çox zəngin idi və olduqca maraqlı keçirdi. Şuşanın demək olar ki, bütün təhsil müəssisələrinin müəllimləri və şagirdləri səhər saatlarından başlayaraq dəstə-dəstə Realnı Məktəbin binasına doğru tələsirdilər.

Saat 10-da tədbir başlandı. Mərhum şairin ruhunu şad etmək üçün əvvəlcə matəm mitinqi keçirildi, dualar oxundu. Məktəbin direktoru bu təntənənin məqsəd, rol və gənclər üçün əhəmiyyətindən danışdı. Altıncı sinif şagirdlərindən biri A.S.Puşkin barədə məlumat verdi. Rus dili müəllimi Sibirtsev sürəkli alqışlara səbəb olan "Dahinin xatirəsi" adlı parlaq və geniş bir nitq söylədi. Tədbir iştirakçılarından məktəbin şəriət müəllimi axund Mirzə Sadiq Lətifov, həkim Əbdülkərim bəy Mehmandarov, müəllim Yusif bəy Məlikhaqnəzərov, jurnalist Haşım bəy Vəzirov və başqaları böyük şair barədə ürək sözlərini dedilər, yuxarı sinif şagirdləri Puşkinin "Qafqaz", "Peterburqun bünövrəsi", "Gələcəkdən xəbər verən Olqa", "Xatirə", "Suda boğulmuş adam", "At", "Moskva", "Körfəzdə yaşıl palıd" şeirlərini və poemalarından parçaları ifadəli şəkildə oxudular. Məktəb orkestrinin və xorunun ifasında şairin musiqili əsərlərinin ifası başlandı. Musiqi müəllimi Reslerin bəstələdiyi "Qafqaz altımdadır" təntənəli marşı tamaşaçıların xüsusi diqqətinə və heyrətinə səbəb oldu. Sonra dərslərini əla oxuyan və məktəbin ictimai işlərində uğur qazanan şagirdlərə mükafatlar verildi, tərifnamələr təqdim edildi. Böyük uğurla başa çatan təntənədən sonra əlaçı şagirdlərə yubiley hədiyyələri – şairin portretləri, xatirə üçün bütün məktəblilərə onun haqqında çap olunmuş kitabçalar paylandı.

Şuşada Puşkin günləri davam edirdi. Şairə həsr olunmuş tədbirlərdən biri də şəhər məktəbində çox böyük təntənə ilə keçirildi. Yerli əhalinin təşəbbüsü və şəhər dumasının vəsaiti ilə şagirdlər üçün həmin vaxtdan Puşkin adına təqaüd təsis olundu. 20 manat məbləğində olan həmin təqaüdün çox yüksək əxlaqi və dərs müvəffəqiyyəti ilə fərqlənən kasıb şagirdlərdən birinə verilməsi nəzərdə tutulurdu.

Qeyd etmək yerinə düşər ki, həmin vaxt Qori Seminariyasında şairin xatirəsinə həsr olunmuş ədəbi-musiqili gecənin keçirilməsində tələbə, sonralar Azərbaycanın görkəmli ictimai-siyasi xadimi kimi tanınmış məşhur pedaqoq, dilçi-alim və jurnalist, şuşalı Fərhad Ağazadə də fəal iştirak etmişdi. O, "Rus ədəbiyyatının və Puşkinin Azərbaycan tatarlarının ədəbiyyatına təsiri" mövzusunda məruzə etmişdi. Olduqca şövqlə tərtib edilən irihəcmli Puşkin albomunun hazırlanmasında da gənc tələbənin xüsusi rolu olmuşdu. Fərhad Ağazadənin albomuna daxil edilmiş bu iş iştirakçıların diqqətini xüsusi olaraq cəlb etmişdi. O həm də şairin "Tunc atlı" poemasında "Tənha dalğaların sahilində" parçasını xorla birlikdə oxumuşdu.

…1937-ci ilin fevral ayında Aleksandr Sergeyeviç Puşkinin vəfatından 100 il ötürdü. Ölkənin hər yerində, o cümlədən, respublikamızın bütün rayon və şəhərlərində də şairin vəfatının bir əsrlik yubileyinin keçirilməsinə hazırlıq işləri görülürdü. Şuşa Rayon Partiya Komitəsi Puşkin günləri keçirmək üçün komissiya təşkil etmişdi. Eyni zamanda, şəhər məktəbində yubileyə aid kabinə də düzəldilmişdi. Burada "Kapitan qızı", "Belkinin hekayələri", Səməd Vurğunun tərcüməsində "Yevgeni Onegin" əsərləri nümayiş etdirilir və divarları şairin portretləri bəzəyirdi. Məktəbdə böyük ədəbi-bədii gecə keçirmək nəzərdə tutulmuşdu.

Şəhər orta məktəbinin şagirdləri Sabir adına Kitabxanada və Pedaqoji Texnikumda Puşkin sərgisi düzəltmişdilər. Yerli şairlərdən Mirzə Xosrov Axundov (Şaiq), Novruz Heyrani, Kamal Qəhrəmanov və başqaları yubileyə yeni şeirləri ilə gəlmişdilər.

Nəhayət, fevralın 10-da puşkinsevərlər şəhər klubunda "rus poeziyasının günəşi"nin xatirə gecəsinə toplaşdılar. Rayonun rəhbər təşkilatlarının nümayəndələrinin və beş yüzdən çox tamaşaçının iştirak etdiyi təntənəli fəxri və əməli heyət seçildi. Şuşa Rayon İcraiyyə Komitəsinin sədr əvəzi Ağayev giriş sözü söyləyərək iclası açıq elan etdi. Dahi şairin yaradıcılığı haqqında Pedaqoji məktəbin ədəbiyyat müəllimi İsaq Məmmədovun məruzəsindən sonra Şuşa şəhər orta məktəbinin ədəbiyyat müəllimi Əyyub Musayev və İdris Hacıyevin çıxışları dinlənildi.

Olduqca maraqlı keçən gecədə Aleksandr Sergeyeviç Puşkinin əsərlərindəki obrazları göstərən ədəbiyyat nümunələrindən sərgi təşkil olunmuşdu. Bədii hissədə uşaq evinin, pedaqoji və musiqi texnikumlarının tələbələri konsert proqramı ilə çıxış etdilər. Azərbaycan, rus və başqa dillərdə şairin əsərlərindən parçalar söylədilər.

Puşkinin yubiley tədbirlərində fəal iştirak edən yerli şair Mirib-rahim Ağamirzadə şairə olan məhəbbətini "Mirnatiq" təxəllüsü ilə yazdığı "Yaşa, Puşkin, dünya durduqca yaşa!" şeirində qələmə almışdı.

...Şeirə, sənətə həmişə yüksək qiymət və dəyər verən şuşalı ədəbiyyat və poeziya həvəskarları dahi şairin həm anadan olmasının, həm də vəfatının 100 illiyini xüsusi təntənə ilə, böyük sevgi və məhəbbətlə qeyd etmişlər.

# Müəllimlərin işə qəbulu üzrə test imtahanının nəticələri açıqlanıb

Dövlət İmtahan Mərkəzi və Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə avqustun 7-də keçirilmiş test imtahanının nəticələri açıqlanıb.

Test imtahanında iştirak üçün qeydiyyatdan keçmiş 1992 nəfərdən 283 nəfər imtahana gəlməyib.

İmtahanda iştirak etmiş namizədlərin imtahan nəticələri və cavab kartlarının qrafik təsviri Dövlət İmtahan Mərkəzinin rəsmi internet saytında yerləşdirilib.

Mədəniyyət Nazirliyinin 2022-ci il 20 aprel tarixli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu Qaydaları"nın tələblərinə uyğun olaraq təşkil edilmiş test imtahanında namizədlərə 70 test tapşırığı təqdim olunub. 40 tapşırıq seçilən müvafiq sahə üzrə ixtisas biliklərini, 10 tapşırıq pedaqoji bacarıqları, 10 tapşırıq məntiqi təfəkkürü, 10 tapşırıq isə ümumi dünyagörüşünü yoxlayan qapalı tipli test tapşırıqlarıdır. Hər düzgün cavab 1 balla qiymətləndirilib. Səhv cavablar ümumi nəticəyə təsir göstərmir.




İmtahanda təqdim edilmiş test tapşırıqlarından 50 faizini düzgün cavablandıraraq 35 bal toplamış namizədlər (Bakı, Sumqayıt və Gəncə şəhərlərində, Abşeron rayonunda yerləşən məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilirlər.

Bakı şəhərində yerləşən məktəblər üzrə işə qəbul üçün test tapşırıqlarından 70 faizini düzgün cavablandıraraq 49 bal toplamış namizədlər, Sumqayıt və Gəncə şəhərlərində, Abşeron rayonunda yerləşən məktəblər üzrə isə test tapşırıqlarından 60 faizini düzgün cavablandıraraq 42 bal toplamış namizədlər uğur qazanmış hesab edilirlər.

Tələb olunan keçid balını toplayan namizədlər müsahibə mərhələsinə buraxılırlar. Müsahibələrin vaxtı və yeri barədə nazirlik tərəfindən əlavə məlumat veriləcək.

## Reklamda kreativlik

### Mütəxəssislər YARAT-da bir araya gəliblər

YARAT Müasir İncəsənət Mərkəzində dünyanın məşhur yaradıcılıq festivallarından sayılan "Cannes Lions" və "Endorphin" reklam agentliyinin birgə əməkdaşlığı ilə yaradıcı və marketinq sektorunda fəaliyyət göstərən mütəxəssislər üçün hazırlanan "Reklamda kreativlik" adlı tədbir keçirilib.

Tədbirdə "Cannes Lions 2022" festivalından yenicə qayıtmış Azərbaycan təmsilçiləri – "Young Lions" müsabiqəsinin gənc iştirakçıları və festivalın əsas bölümündə iştirak etmiş reklam agentliklərinin, həmçinin müxtəlif yerli brendlərin nümayəndələri fikir mübadiləsi aparıb, bilik və təcrübələrini bölüşüblər.

## Damcılı mağara düşərgəsində arxeoloji tədqiqatlar



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun (Qazax rayonu Daşsalahlı kəndi) ərazisində yerləşən dünya əhəmiyyətli Damcılı mağara düşərgəsində elmi tədqiqat işləri davam edir.

Arxeoloji tədqiqatlar 2015-ci ildə "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiyanın Tokio Universitetinin Muzeyi arasında imzalanan memorandum çərçivəsində aparılır.

2020-2021-ci illərdə pandemiya səbəbindən qazıntı işlərinə fasilə verilsə də, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə bu il qazıntı işləri bərpa edilib.

Hazırda ərazidə yerli və yaponiyalı arxeoloqlar birgə elmi tədqiqat işləri aparırlar. Ekspedisiyanın məqsədi Qafqazda Neolitdən əvvəlki dövrlərə aid maddi sübutlar əldə etmək və ərazinin qədim insan məskəni olduğunu bir daha təsdiqləməkdir.

## Lənkəranda Orta əsrlərə aid maddi mədəniyyət nümunələri aşkarlanıb

Lənkəran rayonunun Velədi kəndi ərazisində aparılan tikinti işləri zamanı maddi mədəniyyət nümunələri aşkarlanıb.



AMEA-dan bildirilib ki, bu barədə Lənkəran Regional Elmi Mərkəzinə müraciət olunub. Mərkəzin Folklor, etnoqrafiya və arxeologiya şöbəsinin aparıcı elmi işçiləri, tarix üzrə fəlsəfə doktorları Samir Kərimov və Mais Cəfərov tərəfindən əraziyə baxış keçirilib.

Məlum olub ki, Lənkərançayın sağ sahilində – Velədi və Gərmətük kəndlərinin arasında yerləşən yeni məhəllədə hasar tikintisi ilə əlaqədar qazılan xəndəkdə 40 sm dərinlikdən Orta əsrlərə aid şirsiz və şirli saxsı məmulatları aşkarlanıb. Tapılan məmulatlar burada mədəni təbəqənin qalınlığı 1 metrdən çox, təqribən 2 ha sahəyə malik olan və IX-XI əsrlərə aid yaşayış yerinin mövcudluğunu deməyə əsas verir. Abidə üzərində Velədi kəndinin yeni məhəlləsi salındığından mədəni təbəqə ciddi dağıntılara məruz qalıb və onun mikroreylefi pozulub. Həmin ərazidən təqribən 1 km şərqdə isə həyətlərin birində quyu qazılarkən təqribən 3-4 m dərinlikdən Erkən Orta əsrlərə aid buxurdan və saxsı qazan tapılıb.

Alimlərin fikrincə, abidələrdə mədəni təbəqənin xarakterini dəqiq müəyyən etmək üçün gələcəkdə arxeoloji qazıntıların aparılması zəruridir.

## Növbəti "DokuBaku" festivalı keçiriləcək

VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı (BSFF) bu il 21-25 sentyabr tarixində keçiriləcək. Festivalın builki mövzusu "Təkamülə qarşı inqilab"dır.




Filmlərin seçimi artıq yekunlaşıb. Bu dəfə 32 ölkədən ümumilikdə 68 sənədli film seçilib və 7 kateqoriya üzrə təqdim olunacaq. O cümlədən "Ən yaxşı sənədli film" nominasiyasında 13, "No-Main" müsabiqəsində 18, ən yaxşı xarici və yerli qısa sənədli filmlər üzrə 19 ekran işi münsiflər heyəti tərəfindən dəyərləndiriləcək.

Qaliblər festivalın sonuncu günü elan olunacaq.

Həmçinin müsabiqədən kənar 5, "DokuKids"də 4 və "DokuUA"da 5 film nümayiş etdiriləcək.

Hər il festival dünyaca məşhur bir rejissorun filmlərindən ibarət silsilə nümayiş təşkil edir. Bu il qazaxıstanlı rejissor, 2009-cu ildə "Oskar" mükafatının nominantı ("Zanbaq" filmi) olmuş Sergey Dvortsevoyun dörd filmindən ibarət retrospektiv hazırlanıb.

6-cı festivalın proqramına ilk dəfə uşaqlar üçün sənədli filmlər daxil edilib. Bundan başqa, festival Ukraynadan sənədli filmlər nümayiş etdirməklə bu ölkənin rejissorlarına dəstək olacaq.

Nümayişlərin məkan, gün və saatları yaxın bir zamanda açıqlanacaq.

2017-ci ildə təsis olunan "DokuBaku" festivalı (təsisçilər İmam Həsənov və Veronika Yanatkova) müxtəlif ölkələrdən sənədli filmlərin nümayişi ilə yanaşı, yerli filmmeykerlərə dəstək vermək məqsədi daşıyır.

**Lalə Azəri**

## Süni intellekt və data elmi

Təhsil İnstitutunun təşkilatçılığı ilə "Süni intellekt və data elmi" layihəsi çərçivəsində təlim iştirakçılarının əmək bazarına daha rahat adaptasiyası məqsədilə bu sahədə perspektivli və rəqabətə davamlı mühit formalaşdırmış təşkilatların əməkdaşları və şirkətlərin nümayəndələri ilə görüşlər keçirilir. Bu barədə Təhsil İnstitutundan məlumat verilib.

İnstitutun Təhsil Texnologiyaları Mərkəzində baş tutan növbəti görüşdə spiker qismində "Metafluence" şirkətinin həmtəsisçisi və idarə heyətinin üzvü Elşad Yusifli və "Tensorflow" işçi qrupunun təsisçisi Murad Əlili çıxış ediblər.

Elşad Yusifli "Süni intellekt və data elmi" layihəsi çərçivəsində həyata keçirilən təlimlərin əhəmiyyətini vurğulayıb. Murad Əlili isə virtual dünya, məlumat mərkəzinin ixtira olunması, rəqəmsal pul kisələri, elektrikli nəqliyyat vasitələri, avtomatlaşdırma, çatdırılma dronları, orbital aerokosmik, 3D çap, hüceyrə və gen terapiyası kimi mövzular barədə danışıb.

Görüşdə Təhsil İnstitutunun əməkdaşları və müvafiq sahə üzrə təhsil alan tələbələr iştirak ediblər. Sonda iştirakçıların sualları cavablandırılıb.

## Muzeyşünaslığın tədrisi problemləri

### Respublika elmi konfransı keçiriləcək

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) "Muzeyşünaslığın tədrisi problemləri" mövzusunda keçiriləcək IV respublika elmi konfransına məruzə qəbulu aparılır.




ADMİU-nun 100, muzeyşünaslıq ixtisası üzrə mütəxəssislərin buraxılışının 25 illiyinə həsr olunan konfrans dekabrın 16-da keçiriləcək.

Muzey təhsili – nəzəriyyə və təcrübə, Azərbaycanda muzey işinin öyrədilməsinin yeni istiqamətləri və digər məsələlərə həsr olunan konfransda iştirak etmək istəyənlər məruzələrini noyabrın 7-dən gec olmayaraq Azərbaycan, ingilis və rus dillərindən birində surəti elektron daşıyıcıda və ya muzeyshunasliq@bk.ru elektron poçtu vasitəsilə təşkilat komitəsinə təqdim edə bilərlər.

Qəbul edilmiş məqalələrin nəşri ödənişlidir. Konfrans materialları toplu halında tədbirin sonunda iştirakçılara təqdim olunacaq.

Konfransda iştirak və məruzənin tərtibi qaydaları ilə ADMİU-nun saytında ətraflı tanış olmaq mümkündür.

## Xatirə təqvimi — 11–17 avqust

### Azərbaycan

**11 avqust 1910** – Xalq artisti Konstantin Mixayloviç Myakişev (1910-1990) Bakıda doğulub. 1930-1960-cı illərdə (fasilələrlə) Dövlət Rus Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**11 avqust 1973** – Şair, dramaturq, Əməkdar incəsənət xadimi Zeynal Rza oğlu Xəlil (1914-1973) vəfat edib. "Düşüncələr", "Sevdiyim rəng" və s. şeir kitabları, "Ulduzlar" mənzum romanı, "İntiqam", "Ata yolu" pyeslərinin müəllifidir.

**12 avqust 1921** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (1921 – 23.9.2014) anadan olub. "Haradasan dost, harada", "Adamlar və talelər", "Sönmüş ulduzların işığı" və s. romanların müəllifidir.

**12 avqust 1923** – Tərcüməçi Kamil Həsən oğlu Məmmədov (1923-1989) Bakıda anadan olub. SSRİ xalqları ədəbiyyatından tərcümə etdiyi pyeslər teatrlarda tamaşaya qoyulub.

**12 avqust 1926** – Xalq şairi, Dövlət mükafatı laureatı Qabil (Qabil Allahverdi oğlu İmamverdiyev; 1926 – 3.4. 2007) Bakıda anadan olub. Kitabları: "Mənim mavi Xəzərim", "Ömrüm boyu", "Nəsimi", "Ömrün həbləri", "İlahi qisməti" və s.

**12 avqust 1943** – Xalq artisti Vaqif Abdulla oğlu Şərifov (1943 – 5.10.2021) anadan olub. Sumqayıt, Ağdam teatrlarında baş rejissor, Gəncə Dövlət Dram Teatrında baş rejissor və bədii rəhbər işləyib, filmlərə çəkilib.

**13 avqust 1944** – Əməkdar artist Mansur Əbdül oğlu Mansurov (1944 – 22.4.2020) Bakıda doğulub. 1970-ci ildən ömrünün sonuna qədər A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub.

**13 avqust 2021** – Xalq artisti Vaqif Məzahir oğlu Əliyev (31.7.1940 – 2021) vəfat edib. Sumqayıt Dövlət Dram Teatrının, Bakı Bələdiyyə Teatrının aktyoru olub, filmlərə çəkilib.

**14 avqust 1923** – Ədəbiyyatşünas, akademik, Dövlət mükafatı laureatı Kamal Abdulla Şaiq oğlu Talıbzadə (1923 – 20.1.2006) anadan olub. "Ədəbi irs və varislər", "Azərbaycan ədəbi tənqidinin tarixi" və s. monoqrafiya və kitabların müəllifidir.

**14 avqust 1933** – Şair, Əməkdar incəsənət xadimi Ramiz Heydər (Məmmədov; 1933-2010) Bakıda anadan olub. 30-dək kitabın müəllifidir. Sözlərinə populyar mahnılar bəstələnib.

**14 avqust 1940** – Yazıçı-tərcüməçi, kino təşkilatçısı Asif Akif oğlu Əliyev (1940-2001) anadan olub. "Azərbaycanfilm"də dublyaj şöbəsinin baş redaktoru işləyib.

**14 avqust 1961** – Əməkdar artist Əzizə Əbdülbaği qızı Məmmədova (1892, Tiflis – 1961) vəfat edib. Akademik Dram, Türk İşçi teatrlarında çalışıb, "Görüş", "Səhər" və s. filmlərdə çəkilib.

**15 avqust 1902** – Əməkdar artist Qəmər Topuriya (Tamara Vissarionovna Topuriya; 1902-1947) Tiflisdə doğulub. Tiflis Azərbaycan Dram Teatrının, Azərbaycan Dövlət Akademik Dram Teatrının aktrisası olub.

**15 avqust 1922** – Xalq artisti, respublikanın Dövlət mükafatı laureatı Konstantin Adamov (1922-1990) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**15 avqust 1952** – Əməkdar müəllim Yusif Boran oğlu Vəliyev (1952 – 25.5.2021) Ağdam şəhərində anadan olub. Bakı şəhəri G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin direktoru işləyib.

**16 avqust 1924** – Məşhur tarzən, Əməkdar artist Əhsən Əliabbas oğlu Dadaşov (1924 –29.5.1976) Bakıda olub. 1960-cı ildə Azərbaycan Televiziyası və Radiosunun "Xatirə" xalq çalğı alətləri ansamblını yaradıb. Hazırda kollektiv onun adını daşıyır.

**16 avqust 1925** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, akademik, Dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadə (1925 – 13.2.2009) Şəkidə anadan olub. 20-dək poema, 10 dram əsəri ("Vicdan", "Yollara iz düşür", "Özümüzü kəsən qılınc", "Dar ağacı" və s.) yazıb. Azərbaycan Ali Sovetinin (1980-1995), Milli Məclisin (1995-2000) deputatı olub.

**16 avqust 1925** – Yazıçı-dramaturq, ədəbiyyatşünas, dövlət xadimi Şıxəli Qurban oğlu Qurbanov (1925 – 24.5.1967) Bakıda doğulub. "Əcəb işə düşdük", "Milyonçunun dilənçi oğlu" və s. pyeslərin müəllifidir. Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan KP MK-nın katibi olub.

**16 avqust 1936** – Tanınmış filosof, AMEA-nın müxbir üzvü Zakir Cabbar oğlu Məmmədov (Baharlı; 1936 – 2.3.2003) Ağdamda doğulub. "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir", "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" və s. kitabların müəllifidir.

**17 avqust 1942** – Dünya şöhrətli Azərbaycan müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayev (1942 – 25.10.2008) Bakıda doğulub. Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Beynəlxalq müsabiqələrin qalibi, Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri olub. "Nizami" filmində (1982) baş rola çəkilib.

**17 avqust 1943** – Xalq artisti, müğənni İlhamə Məzahir qızı Quliyeva (1943 – 25.2.2016) anadan olub. Azərbaycan Televiziyası və Radiosu estrada orkestrinin, Dövlət Filarmoniyasının solisti olub.

**17 avqust 1958** – Musiqişünas, sənətşünaslıq namizədi Aytəkin Tofiq qızı Həsənova (1958-2012) Bakıda doğulub. Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri olub.

**17 avqust 1998** – Xalq yazıçısı Yusif Səmədoğlu (Yusif Səməd oğlu Vəkilov; 25.12.1935 – 1998) vəfat edib. "Ulduz", "Azərbaycan» jurnallarının baş redaktoru, Milli Məclisin deputatı olub.

### Dünya

**11 avqust 1748** – Alman bəstəkarı Yozef Şuster (Joseph Schuster; 1748-1812) anadan olub.

**11 avqust 1921** – Amerika yazıçısı Aleks Heyli (Alexander Murray Palmer Haley; 1921-1992) anadan olub. Avtobioqrafik "Köklər" romanı ilə dünya şöhrəti qazanıb.

**12 avqust 1866** – İspan dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1922) laureatı Xasinto Benavente-i-Martines (Jacinto Benavente Martinez; 1866-1954) anadan olub. "Qubernatorun xanımı", "Şənbə gecəsi", "Yaxşı məhəbbətin dərsləri" və s. pyeslərin müəllifidir.

**13 avqust 1899** – Amerika rejissoru, "Oskar" mükafatları laureatı Alfred Hiçkok (Alfred Joseph Hitchcock; 1899-1980) anadan olub. Filmləri: "Quşlar", "Naməlum insanlar qatarda", "39 pillə" və s.

**14 avqust 1867** – İngilis yazıçısı, dramaturq və şair, ədəbiyyat üzrə Nobel mükafatı (1932) laureatı Con Qolsuorsi (John Galsworthy; 1867-1933) anadan olub. "Forsaytlar haqqında saqa" trilogiyası, "Gümüş qutu" pyesi və s. əsərlərin müəllifidir.

**15 avqust 1771** – Şotland yazıçısı, şair Valter Skott (Walter Scott; 1771–1832) anadan olub. Tarixi roman janrının banisi sayılır. Əsərləri: "Edinburq həbsxanası", "Ayvenqo", "Kventin Dorvard", "Marmion" (mənzum roman) və s.

**15 avqust 1890** – Fransız bəstəkarı Jak İber (Jacques François Antoine İbert; 1890-1962) anadan olub. Əsərləri: "Anjelika", "Kral İveto" (opera), "Səyyah cəngavər" (balet) və s.

**16 avqust 1645** – Fransız yazıçısı Jan de Labryuer (Jean de La Bruyere; 1645-1696) anadan olub. Əxlaq və fəlsəfi dəyərlərdən bəhs edən "Xarakterlər" əsərinin müəllifidir.

**17 avqust 1932** – Hind əsilli yazıçı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2001) Vidiadxar Suracprosad Naypol (1932–2018) Trinidad və Tobaqoda anadan olub. Ömrünün böyük hissəsini İngiltərədə yaşayıb.

**17 avqust 1935** – Rus teatr və kino aktyoru, rejissor, SSRİ Xalq artisti Oleq Tabakov (1935 – 12.3.2018) anadan olub. Çexov adına Moskva Bədaye Teatrına rəhbərlik edib. 100-dən çox filmdə çəkilib.

**Hazırladı: Vüqar Orxan**

№58-59 (1932)
17 avqust 2022
www.medeniyyet.az

# Macar çölündə türk tarixinə səyahət

## VII Hun-Türk Qurultayında ölkəmiz də təmsil olunub



12-14 avqust tarixində Macarıstanın Buğac bölgəsində, Kişkunşaq milli parkının ərazisində VII Hun-Türk Qurultayı keçirilib. Avropada ən böyük ənənəvi tədbirlərdən sayılan, Türk dünyasının birliyini təcəssüm etdirən qurultayda 20-dən çox türksoylu xalq təmsil olunub. Qurultay tədbirləri Macarıstanın paytaxtı Budapeştdə, həmçinin Keçkement, Şiofok şəhərlərində də gerçəkləşib.

Tədbirə Türkiyə, Azərbaycan, Qırğızıstan və Qazaxıstandan nümayəndə heyətləri də qatılıb.

Açılış mərasimində Macarıstan Parlamentinin sədri Laslo Köver, Türkiyənin sabiq Baş naziri və TBMM-in keçmiş spikeri, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Azərbaycan Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Əzəmət Jamankulov və digər qonaqlar çıxış ediblər.

Macar-Turan Fondunun təşkilatçılığı ilə keçirilən tədbirə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da dəstək verib. Fondun prezidenti Günay Əfəndiyeva qurultay iştirakçılarına təbrik məktubu ünvanlayıb. Məktubda vurğulanır ki, qurultayın hər bir iştirakçısı minilliklərə söykənən mədəniyyətin davamçısı və parçası olduğu üçün böyük fəxarət duyur. Qurultayda türk xalqlarının milli mədəniyyət nümunələrinin nümayiş etdirilməsi Avropa məkanında maddi-mənəvi dəyərlərimizin tanıdılması baxımından da önəmli rol oynayır.

Fondun prezidenti türk xalqları arasında birlik və bərabərliyin möhkəmləndirilməsində son dərəcə əhəmiyyətli olan növbəti Hun-Türk Qurultayının təşkili münasibətilə Macar-Turan Fondunun prezidenti Andraş Bironu və əməyi keçən hər kəsi təbrik edib: "Bu cür maraq və əks-səda doğuran tədbirlərin, qürurlu anların Türk dünyasının dörd bir yanında, o cümlədən Bursada və Şuşada, Türküstanda və Oşda, Səmərqənddə və Mərvdə də təşkil olunması mühüm önəm daşımaqdadır. Beləliklə, türklər olaraq öz şanlı keçmişimizi bir daha xatırlayacaq, bugünümüzə nəzər salacaq və güc alaraq, əl-ələ parlaq gələcəyə doğru irəliləyəcəyik".



Qeyd edək ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun və Azərbaycan Respublikasının Macarıstandakı Səfirliyinin birgə əməkdaşlığı çərçivəsində ölkəmizin sənətçilər qrupu – xanəndələr Nuriyyə Hüseynova, Qoçaq Əsgərov, tarzən Arslan Növrəsli, nağara ifaçısı Kamran Kərimov, kamança ifaçısı Elnur Mikayılov və "Odlar Yurdu" rəqs qrupu tədbirdə iştirak edib. Sənətçilərin Türk dünyasının zəngin musiqisini əks etdirən ifaları maraqla qarşılanıb və alqışlarla müşayiət olunub.

İki ildə bir dəfə keçirilən Hun-Türk Qurultayına Avropanın bir çox yerlərindən turistlər gəlir. Tədbirin məqsədi Türk dünyası mədəniyyət nümunələrinin nümayiş etdirilməsidir. Ötən illərdə olduğu kimi, bu il də 100-dən çox alaçıqdan ibarət nəhəng, köçəri düşərgə salınıb. Teatrlaşdırılmış şou-proqramlar, musiqili tamaşalar, arxeoloji-antropoloji sərgilər, sənətkarların əl işlərinin yarmarkası təşkil edilib. Macar çölünü qılınc səsləri, ox vıyıltısı bürüyüb. Keçmişdə olduğu kimi, qədim musiqi aləti – şan-qopuzun və şaman dəflərinin səsi ətrafa yayılıb.

# "Balıqlara xütbə" Lokarnoda iki mükafat qazanıb

Xəbər verdiyimiz kimi, 3-13 avqust tarixlərində keçirilən 75-ci Lokarno Film Festivalının (İtaliya) əsas müsabiqə proqramında azərbaycanlı rejissor Hilal Baydarovun "Balıqlara xütbə" ("Sermon to the Fish") filmi də nümayiş olunub.

Avqustun 10-da nümayiş olunan ekran əsəri münsiflər və kinosevərlər tərəfindən maraqla qarşılanıb.

"Balıqlara xütbə" filmi festivalda jürinin "xüsusi diqqət" ("Special Mention Pardo Verde WWF") və gənc münsiflər heyətinin mükafatlarına layiq görülüb.

"Balıqlara xütbə" filmi Azərbaycan, Meksika, İsveçrə və Türkiyə kinematoqrafçılarının birgə işidir. Filmin ssenari müəllifləri Hilal Baydarov və Aisu Akcandır. Ekran əsəri müharibələrdə, savaşın ağrıları içində itmiş, unudulmuş ruhlar haqqında fəlsəfi nağıldır.




Festivala rejissor Hilal Baydarovla yanaşı, prodüserlər Elşən Abbasov, Den Veksler, aktyorlar Orxan İsgəndərli, Rəna Əsgərova, Hüseyn Nəsirov da qatılıblar. Filmin nümayişindən əvvəl keçirilən mətbuat konfransında rejissor filmin süjeti və yaradıcı heyətin işindən danışıb.

Xatırladaq ki, Hilal Baydarovun "Səpələnmiş ölümlər arasında" filmi 2020-ci ildə İtaliyada, 77-ci Venesiya Film Festivalında nümayiş olunub. Film müstəqil Azərbaycan kino tarixində ilk dəfə A kateqoriyalı festivalın əsas müsabiqəsində yer alıb. Ekran əsəri 2021-ci ildə Tokioda beynəlxalq kinofestivalın, həmçinin İstanbulda "Dədə Qorqud" Türk Dünyası Beynəlxalq Film Festivalının mükafatlarına layiq görülüb.

# Filmlərimiz Kazan festivalında nümayiş olunacaq

Sentyabrın 7-dən 11-dək Tatarıstanın paytaxtı Kazanda XVIII Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalı keçiriləcək. Festivalda Azərbaycan filmləri də nümayiş olunacaq.

"Rusiya – İslam dünyası" proqramında Əli-Səttar Quliyevin "Olimpiya" tammetrajlı bədii filmi, "Türk dünyası" proqramında Elvin Mirzəyevin "Qul" filmi, "Qısa filmlər" proqramında Qulu Əliyevin "Hasar", "Qısametrajlı sənədli filmlər" proqramında isə Elvin Aşirovun "Eviniz haradadır?" filmləri təqdim ediləcək.

XVIII Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalının münsiflər heyətinə Rusiyanın Xalq artisti Vladimir Xotinenko sədrlik edəcək. Münsiflər heyətinə müxtəlif ölkələrdən kino tənqidçiləri, rejissor və aktyorlar daxildir.

Builki festivalda iştirak üçün dünyanın 44 ölkəsindən 625 müraciət qeydə alınıb.

# "Anadolu bəbiri" Pekinə gedib

Türkiyəli rejissor Əmrə Kayışın 2021-ci ildə çəkdiyi "Anadolu bəbiri" filmi 12-ci Pekin Beynəlxalq Film Festivalının müsabiqə proqramında iştirak edir.




Avqustun 14-də başlayan festivalda 14 ölkədən 16 film "Tientan" ("Göy məbədi") mükafatları uğrunda mübarizə aparacaq.

"Anadolu bəbiri" festival müddətində şəhərin üç fərqli kinoteatrında (14, 16, 20 avqust) nümayiş olunacaq. Uğur Polat və İpek Türktanın baş rollarda çəkildiyi film Ankara zooparkının müdirinin, nəsli kəsilməkdə olduğu üçün qoruma altında saxlanılan Anadolu bəbirinin ölümünü gizlədərək, zooparkın bağlanmasının qarşısını almaq üçün göstərdiyi səydən bəhs edir.

Çinli aktyor Li Şuecienin sədrlik etdiyi 7 nəfərlik münsiflər heyəti "Ən yaxşı film", "Ən yaxşı rejissor", "İncəsənətə töhfə", "Ən yaxşı aktyor", "Ən yaxşı aktrisa", "Ən yaxşı ssenari", "Ən yaxşı operator işi" və "Ən yaxşı musiqi" və s. kateqoriyalar üzrə seçimlər edəcəklər. Mükafatlar avqustun 20-də keçiriləcək mərasimdə sahiblərini tapacaq.

"Anadolu bəbiri" 2021-ci ildə Toronto Beynəlxalq Film Festivalında və Antalya Film Festivalında mükafatlar qazanıb.

# "Betmen"in davamı olacaqmı?



Robert Pattinsonun baş rolu oynadığı "Betmen" ("Batman") filminin ikinci hissəsinin çəkilişləri hələ "Warner Bros." tərəfindən təsdiqlənməyib.

Kino şirkətinin özü sikvel barədə aprelin sonunda elan etsə də, istehsala hələ rəsmən razılıq verilməyib. Problem "Warner Bros."un yeni rəhbərliyi (David Zaslav) ilə əlaqədardır.

Qeyd edək ki, 2022-ci ilin martında ekranlara çıxan və dünya prokatında təxminən 770 milyon dollar toplayan filmin ilk bölümü tamaşaçılar və mətbuat tərəfindən bəyənilib.

Bununla belə, "Warner Bros." Korporasiyası "Betmen 2"nin çəkilişlərinə tezliklə başlamaq istəmir. Ekspertlər yeni filmin premyerasının 2024-cü ildən tez olmayacağını bildirirlər.

# "Coker-2"də baş rola görə 150 milyon dollar alacaq

Rejissor Todd Fillipsin "Coker-2" filmi 2024-cü ildə ekranlara çıxacaq. Məlumatlara görə, filmdə baş rolu oynayan Hollivud aktyoru Xoakin Feniks (Joaquin Rafael Phoenix) bu dəfə rekord məbləğdə – 150 milyon dollar qonorar alacaq.



Ekran əsərində məşhur müğənni Ledi Qaqanın da rol alacağı təsdiqlənib. Harli Kvin obrazını canlandıracaq ifaçının qonorarının 10 milyon dollar olacağı bildirilir.

Qeyd edək ki, "Coker-1" psixoloji trillerinin (ssenari müəllifləri Todd Fillips və Skott Silver) premyerası 31 avqust 2019-cu ildə Venesiya Beynəlxalq Film Festivalında keçirilib. Film festivalın baş mükafatına – "Qızıl şir"ə layiq görülsə də, tənqidçilər arasında geniş müzakirələrə səbəb olub. Ekran əsərinin süjetinin gerçək həyatda zorakılığı təşviq edə bilməsi ehtimalı ictimaiyyətdə narahatlıq doğurub.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 116 il əvvəl...

**16 avqust 1906-cı ildə** Nijni-Novqorod şəhərində Ümumrusiya müsəlmanlarının III qurultayı işə başlayıb. Avqustun 20-dək davam edən qurultayda Ümumrusiya Müsəlmanları İttifaqının proqram sənədləri, rəhbər strukturları təsdiqlənib. Əlimərdan bəy Topçubaşov Ümumrusiya Müsəlmanları İttifaqının rəhbəri seçilib.

### 75 il əvvəl...

**14 avqust 1947-ci ildə** Britaniyanın müstəmləkəsi olan "Britaniya Hindistanı" ərazisində iki dövlət – Hindistan və Pakistan dövlətləri yaranıb. Pakistanın tərkibinə "Britaniya Hindistanı"nın şimal-şərq və şimal-qərb bölgələri daxil olub. Bununla belə, iki ölkə arasında ərazi mübahisəsi (Kəşmir) bu gün də qalmaqdadır. "Hindistan İttifaqı" adı altında üç il mövcud olan dövlət isə 1950-ci ildə (26 yanvar) Hindistan Respublikası elan edildi. Pakistandan fərqli olaraq, Hindistan dövlət bayramını 26 yanvarda qeyd edir. 1971-ci ildə Şərqi Pakistanda müsəlman Banqladeş dövləti yarandı və İslamabadın razılığı ilə o da müstəqilliyini elan etdi.

### 62 il əvvəl...

**16 avqust 1960-cı ildə** Britaniyanın protektoratı olan Kipr dövləti müstəqilliyini elan edib. Aralıq dənizindəki Kipr adası (ərazisi 9,3 min kv km) 1571-1878-ci illərdə Osmanlının tərkibində olmuş, daha sonra Britaniyanın nəzarətinə keçmişdi. Kipr konfederasiya əsasında dövlət elan edilsə də, tezliklə türk və yunan icmalarının münaqişəsi başlandı. 1964-cü ildə adaya BMT-nin ayırıcı kontingentinin yeridilməsi də nəticə vermədi. 1974-cü ildə Türkiyə Kiprin şimalındakı türk icmasını müdafiə etmək üçün oraya qoşun yeritdi. 1983-cü ildə Şimali Kipr Türk Respublikası elan edildi.

### 61 il əvvəl...



**13 avqust 1961-ci ildə** "Berlin divarı"nın tikintisi başlanıb. II Dünya müharibəsindən sonra Almaniyanın ikiyə bölünməsi ilə Berlin şəhəri də sektorlara ayrılmışdı. Şərqi Berlin (sovet sektoru) ADR-in paytaxtı olmuş, Qərbi Berlin isə AFR-in ərazisində qalmışdı.. 1945-1961-ci illər ərzində Şərqi Almaniyadan təxminən 2,3 milyon alman Qərbi Almaniyaya qaçmışdı. Uzunluğu 45 kilometr olan "Berlin divarı" bu prosesin qarşısını almağa imkan verdi. Berlin divarı 1989-cu ildə, Almaniyanın birləşməsindən bir il öncə söküldü.

### 30 il əvvəl...

**15 avqust 1992-ci ildə** Azərbaycanda milli valyuta – manat dövriyyəyə buraxılıb. Azərbaycan müstəqilliyini 1991-ci ildə elan etsə də, keçmiş sovet rublu dövriyyədə idi. Milli valyutanın dövriyyəyə buraxılması barədə fərman 1992-ci il iyulun 15-də Prezident Əbülfəz Elçibəy tərəfindən imzalanmışdı. 1992-ci ildə 1, 5, 10, 250 manatlıq, 1993-cü ildə 50, 100, 500, 1000 manatlıq pul vahidləri tədavülə buraxılıb. 1994-cü ilə qədər manat dövriyyədə köhnə sovet rublu ilə paralel işləyib.

### 23 il əvvəl...



**17 avqust 1999-cu ildə** Türkiyədə dəhşətli zəlzələ baş verib. Gecə saat 3 radələrində meydana gələn və episentrdə 7 bal gücündə hiss edilən fəlakət İstanbul, Bursa, Sakarya, Bolu, İzmit, Gölcük, Yalova və s. şəhərlərdə böyük dağıntı və insan tələfatına səbəb oldu. Rəsmi statistika üzrə zəlzələ qurbanlarının sayı 17-18 min nəfər göstərilmişdi.

### 20 il əvvəl...

**17 avqust 2002-ci ildə** Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu yaradılıb. Azərbaycan Beynəlxalq Bankında Fondun bank hesabları açılıb. İlk dəfə olaraq ölkə əhalisi Azərbaycan Ordusuna bilavasitə yardım göstərmək imkanı əldə edib. 2020-ci ilin 8 dekabrında Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Azərbaycan Ordusuna Yardım Fondu adlandırılıb.

### 18 il əvvəl...

**13 avqust 2004-cü ildə** Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və təbliği sahəsində fəaliyyətinə görə UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülüb. Mehriban Əliyeva türkdilli ölkələrin bu ada layiq görülən ilk qadın təmsilçisidir.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2332
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641